Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

YUSİF HƏSƏNBƏY

# Əkan

(Povest)

«ASPOLİQRAF »
BAKI–2014

YUSİF HƏSƏNBƏY

Y 93 **Təkan.** Bakı, «Aspoliqraf», 2014, 80 səh.

Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən olan Yusif Həsənbəyin bu kitabı insan həyatındakı təsadüflərin ilahi zərurət olduğunu anladan bir kitabdır. İnsanın həyatındakı təsadüflər, əslində, onu məqsədinə doğru aparan yolda bir əlamət, bir rəmzdir. Bu rəmzlər mahiyyət etibarilə insanın anlamadığı, sonadək dərk etmədiyi ilahi «şifrələr»dir. Müəllif povestdə, həmçinin xeyirxahlıq, vicdanlılıq, dürüstlük kimi yüksək mənəvi-ruhani keyfiyyətləri ustalıqla tərənnüm edir.

**Y $\frac{4702060201}{053}$ 2014**

**© «Aspoliqraf», 2014**

## *TƏKAN*
## (Povest)

Bakıda, musiqi nəşriyyatında ədəbi redaktor işləyirdim. Bura quru, cansıxıcı, sükutu vahimə doğuran nəşriyyatlardan daha çox çal-çağırlı filarmoniyanı xatırladırdı. Klassik musiqi əsərləri fortepianolarda çalınıb redaktə olunur, mahnı və romanslar görkəmli müğənnilərimizin ifasında dinlənilir, çapa imzalanırdı. O zaman respublikada xüsusi səlahiyyətləri olan bəzi bədii şuraların üzvüydüm. Ona görə də aparıcı bəstəkarlarla yazdığım mahnılar tez qəbul olunur, dildən-dilə düşürdü. Pyeslərim teatrlarda anşlaqla oynanılır, çap olunan roman və povestlərim rezonans doğururdu. Qələmimdən nə çıxırdısa ədəbi tənqid müsbət reaksiya verirdi. Nəşrlərə bədii tərtibat verməyə dəvət etdiyim rəssamlar öz emalatxanalarında, şair və bəstəkarlar bahalı restoranlarda mənə bahalı qonaqlıqlar verir, mey-məzə məclisləri  həftələrlə sönüb-soyumaq bilmirdi.

Nəşriyyat bağlandı. Balığı sudan kənara atdılar. Bağa arxası üstə çevrildi. Ədəbi aləmdə özgələşdim. Redaksiyalarda üz göstərmədilər. Şeir, nəsr, tərcümə kitablarımın çapını ləngidirdilər. Azad yazıçı olsam da, yaradıcılıq imtiyazlarımdan məhrum olundum. Nəhayət, doğma şəhərimə, ata-ana ocağıma qayıtmağı qət etdim.

Qubanın avtovağzalında məni uşaqlıq və məktəbli dostlarım qarşıladılar.

Görüş ziyafəti Danqa Kamilin çolpa tabakalarıyla ad çıxaran «Quba» restoranında başlandı, sonra «Dəvədabanı» köşkündə, daha sonra havasından bişmiş kərpic qoxusu gələn qədim, yarıqaranlıq «Gülüstan» kafesində vurhavur davam etdirildi.

Hər yerdə məni barmaqla göstərirdilər. «Bəy balası, bəydi də», «Yeriyən ensiklopediyadı!», «Şairimiz mənəm deyən şa-

irlə döş-döşə durar», çalmışdı qulağım bir neçə yerdə. Şəhərin başbilənlərindən bəziləri də yanımda ayaq saxlayır, «Qubamızın şairinə eşq olsun» deyib əlimi sıxanda dizimi baltalayırdı sanki. «Ay kəmsavad, mən balaca bir əyalətin yox, böyük bir ölkənin, bir az da dərinə getsək dünyanın şairiyəm! Poeziya bayrağımı da ustad Nizami zirvəsinə sancacağam», – deyib üzünə qabarmaq istəsəm də, səbrimi basır, özümü saxlayırdım.

Üz-üzə gəldiyim yeniyetmə qızlar mənə çataçatda addımlarını yavaşıdır, bir-birinə qısılıb böyümüş gözləriylə uca, yaraşıqlı boy-buxunuma, xətlə ayrılmış parıltılı saçlarıma, bir ətəyi sallanmış dəri gödəkcəmə tamarzı-tamarzı baxaraq «hi-hi-hi» uşaqsayağı gülüşür, bu gülüşlərin yelpinc sərinlikləri şövqümün, ehtirasımın alovlarını bir az da şiddətləndirirdi.

Bəzi qədeşlər də – şair, qulluğunda olaq, – deyib məni restorana çəkir, mən də – axı sizi tanımıram, – deyə bilmir, bu səmimiyyətlərə saxta təbəssümlərlə cavab verdiyimə görə özümü danlayırdım.

Cansıxıcı günlər bir-birinə calanır, aylar keçirdi. İşsizlik, kasıbçılıq üzündən tənəzzülüm dərinləşir, ruhi sarsıntılarım artırdı. Doğma adamlar arasında get-gedə təkləşir, yadlaşır, özgələşirdim.

Mənimlə badə-badəyə vurmağı şərəf sayan bəzi dırnaqarası dostlarım indi yanımdan saymazyana keçir, kişilikdən, etibardan danışanda ağzına çullu dovşan sığmayan «qədeşlər» də üz-üzə gələndə səkilərini dəyişir, məni görməməzliyə vururdular.

Amma necə güclü cazibəsi varmış bu «Padşahlıq bağı»nın. İlk görüşdəcə yaşıl otlu xiyabanlarına, çiçəkli güldanlarına heyran oldum. Abbasqulu ağa Bakıxanovun «Gülüstani-İrəm» əsərindəki «cənnət bucağı» elə buradı – dedim. Amma əslində, bura «işləmək» deyəndə canı çıxan avaraların, əli gətirməyən qumarbazların, məstlikdən illərlə ayıla bilməyən sərxoşların toplaşdığı daldalanacaqdır.

Mən də onun cazibəsindən çıxmağa can atır, çabaladıqca dərinliklərə sovrulurdum.

Üzüm gülsə də, ürəyim qan ağlayırdı. Buna baxmayaraq, özümü sındırmır, şux göstərirdim. Amma dolaşmış kələfimi məndən başqa heç kim aça bilməzdi. Boynumdakı dəyirman daşının altından necə çıxım? Ümid ancaq Bakıda yaşayan uzaq qohumumuza qalırdı.

Şəhərin mərkəzi poçtuna gəldim. Danışıq məntəqəsindəki şüşə arakəsmə arxasında oturan tanış dispetçer məni görən kimi ayağa qalxdı və başıyla salamladı. Sifariş etdiyim nömrəni əzbər bilirdi. Əlaqə yaranan kimi kabinəyə çağıracaqdı.

Qanım qaraydı. Bu cəhdimin boşa çıxacağından qorxurdum.

Bayırda yağan yağışın oynaq caz-orkestr cingiltiləri ən ölü duyğuları da qızışdırar, ehtizaza gətirərdi. Səma ağappaq idi. Yuxarıdan aşağı millənən ağ dənələr diyirlənə-diyirlənə birbirinə birləşir, uzun yağış çubuqları yerə çırpılırdı. Su şırımları çağlaya-çağlaya küçələr uzunu axır, sonra bu sular birləşib böyük arxlarda sellərə çevriləcək, sonra bu sellər dənizlərə qovuşacaq, üfüqlər boyu dalğalanacaqdılar. Amma mən ədəbi dünyamdan ayrı – tək, köməksizəm.

Dispetçer adımı çağırıb, barmağını təzəcə boşalmış kabinəyə tuşladı. Bakıda məni işə düzəltməyə söz verən, vaxtıyla Şəki, Göyçay, Ucar mahallarında milis rəisi işləmiş «Qozdəstə Baladdaş əmi»dən umurdum nicat işığını. Səsimi eşidən uzaq qohum təmkinlə boğazını arıtlayıb «Çox darıxırsınız, bir münasib iş tapılan kimi…» Kişinin sözünü ağzından vurub «Ay əmi, sənə canım qurban. Ay atam, ay anam. Bu dalandan çıxıb o biri dalana neyçün girdiyini anlamayan bir küçə itinin həyatıdı həyatım. Maşallah, altınız qalındı. Amma qapınıza cibi, əli, qucağı dolu gələnlərin işi tez düzəlir. Övladlarınız, kürəkənləriniz daşıyıb gətirirlər. Qozdəstə mauzeriniz elə indi də üst-ayaqdadı. Amma qırıq bir quş tüfəngim var, onun da patronu, pistonu yox! Sən Allah, sizə söz verənləri tələsdirin bir az…»

Zumerin ağır, qurğuşun nidaları beynimə güllə kimi işlədi.

Qalmasın belə zadəganlıq. «Bizdə bu soyuq qanları neylərdin, İlahi?» – deyən böyük Sabirin sinəsində ürək yerinə daş gəzdirən laqeydlərdən nələr çəkdiyini indi başa düşdüm. Birdən özümü «üstü bəzək, altı təzək» «Padşahlıq bağı»nın qapısında gördüm. Oradakı araq, badə dostlarımın bir dırnağına dəyişmərəm o yalançı polkovnikləri. Girimmi içəri? Sonra hər şey rəvan görünəcək. Daş qəlblərin biganəliyinə əsəbləşməyəcəksən. Heç kəsdən asılı olmadan, utanmadan, çəkinmədən yaşamaq heyif deyilmi? Amma yox, utanmadan, abırsız, həyasız yaşamaq istəmirəm. Mən niyə belə aciz qalmışam? Tanınmış şairəm. Yazıçılar İttifaqının üzvüyəm.

Bakıya gedib, katiblərin qapılarını dabanından çıxarıb özümə bir gün ağlayacam. Telefonda hər şeyi demək olmur. Amma üzüzdən utanar. Ürəyindəkiləri də ürəklə deyərsən. Ancaq o Bakıya da nəynən, necə gedim? Cibimdə heç köpük də yoxdu. Ümid ancaq «Padşahlıq bağı»nın böyründən keçən yol maşınlarına qalırdı.

Rusyət tərəfdən gələn bəzi maşınlar Qudyalçay körpüsünün yoxuşa dirənən yerində sürəti artırır, üzüyuxarı millənib, əyri-dolanbac yolun başında dayanırdılar. Bəzi sürücülər özlərini yaxınlıqdakı «Şahdağ» restoranına salır, burda yuyunur, nahara otururdular. Mən də cavan, dəliqanlı yox, yaşlı bir sürücüyə yaxınlaşar, dil-ağız elər, bir təhər qılığına girib az pulnan özümü Bakıya çatdırardım. Orda Yazıçılar İttifaqında artıq heç kəsə yalvarmaz, birbaşa sədr Mehdi Hüseyndən haqqımı tələb edərdim.

Amma «Yoxuş başı»na da gərək bu «Padşahlıq bağı»nın içindən keçib gedəydim. İndi neyləyim? Bağa girsəm yenə qoltuqaltı araqlar gələcək, taraş stəkanlar sağlıqsız-filansız başlara çəkiləcək, «Araz aşıqdan, Kür topuqdan» olanda Bakıda iş verənin, burda iş axtaranın da keçən keçmişini təzələyəcəm. Bugünkü günüm də dünənkinin tayı olacaq. Qorxu var ki, sabah da elə bugünkü kimi olsun.

Gün qızmışdı. Tez cazibəli bağdan yan ötüb yolun o biri tərəfindəki palıd ağacının kölgəsinə gəldim. Bu, neçə xırmanlıq tacıyla budaqlarında qaratoyuqları, sığırçınları qaqqıldaşan bəxtəvər ağaclardan deyildi. Cılız, boyu batıqdı. Səkiyə asfalt döşəyən əli qurumuşlar ağacın kökünə bir xərək asfalt basıb, damarlarını qurutmuşdular. Laqeydlik, ürəksizlik qurbanı olmuşdu ağac. «Yoxuş başı» da qol-budaq atsaydı, payızda uçub keçən neçə-neçə durna qatarına yol nişanı, yazda qayıdan quşlara yaşıl mayak ola bilərdi palıd. Ancaq ağaca qəsd etmişdilər. Quruyub qabıq verməsəydi, bu qabıqlar altında qarışqalar yem axtara-axtara ağacı qıdıqlayar, cansız canı qızar, palıd dirçələrdi. Poliklinika həyətinə soxulan budağın ortası kotan kəlinin boynu kimi ağarırdı. Dəmir hasarın mişar dişləri bu oğru budağı üzüb atmır, işgəncələrlə öldürürdü. Yox, əyri-oğru yollara getməyəcəm! Qalxıb dikəlməliyəm! Amma Bakıda bir qələm dostum şeirləri, hekayələri ilə jurnalları, qəzetləri zəbt eləyib! Hansı televiziya kanalını açsan ordadı.Yaxşı vəzifəyə keçib. «Ağ gün ağardır». Poeziyanın lacivərd dənizlərində İsgəndəriyyə mayakına dönüb. Ordenlərin, medalların ağırlığından yaxası salxaq gəzir. Altında «Nol şest»i, kabinetində üç nömrə, dörd nömrə dövlət telefonları. Şeir gecələrində gözəl-göyçək qızların öpüşlərinə qərq olur. Bəs mən kiməm? Dərdim ürəyimdən misra-misra qopurdu.

*Sən yazar,*
*Mən də yazar.*
*Sənin gəlhagəlindir,*
*İndi dünya sənindir!*
*Məndən Allah da bezar,*

*Evdə uşaqlar da bezar.*
*Sən şair, mən də şair, –*
*Sənin adın siyahılarda başda.*
*Mənim adım*
*Və ilaxır, və sair.*
*Sənin məzarın Fəxri xiyabanda,*
*Çiçəklər, güllər altında!*
*Mənim nəşim –*
*«Qurd qapısı» deyilən bir biyabanda*
*Yağışlar, sellər altında!*

Birdən ətraflara vıyıltı düşdü. Bəlkə, yoxuş yuxarı maşın gəlir? Noolar, qoy gəlsin. Qadasını alaram. Amma maşın görünmədi. Sağ əldəki şəhər bulvarında qorsovet Oltay Qəniyevin nəzarəti altında səhər-axşam sulanan, quru çör-çöpü budanan qovaq ağacları şaxlaşır, hündürləşirdilər. Başımı qaldırdım. İlahi, bu necə gözəllik, necə cazibədi?! Əhsənül-xaliqin, ey ali qüdrət sahibi. Günəş şəfəqləri altında qovaqların yarpaqları alışıb yanırdı. Qıçalanan budaqlarıyla çaxılan ildırımlara dönürdülər gözümdə. Damarlarında çağlayan nur-işıq selləri budaqları şövqlə çırpındırır, yaşılyarpaq lampalar bulvar yuxarı Şahdağ zirvələrinə gedənlərin yolunu işıqlandırırdı.

Bəs basaratım niyə bağlanıb? Yaşamaq həvəsim tükənir yavaş-yavaş. Oxucuların gözündə yandırdığım işıqlar sönməkdədi. Soyuq bir üşütmə düşdü canıma. Arxaya çevrilib «Padşahlıq bağı»na baxdım. Gedimmi? Qayıdımmı? Əsəblərim dincələrdi, bəlkə?

Boynumun ardında bir çıqqıltı eşitdim. Palıd yarpağı çiynimdən sürüşüb yerə düşdü. İstidən yanları qıcanıb büzüşmüş, ucu geri qatlanmışdı. Yarpaq quruyub qırışmış çarığa oxşayırdı. «Elə-belə yarpaqdı da, quruyub düşüb də!» Yarpaq başqa bir vaxt, başqa bir yerə düşə bilərdimi? Bilərdi. Amma ayağımın

altına düşməyi mənə nəsə deyirdi. Bəli! Bəlkə, bu labirintlərdən çıxmağa yenə çarıq geyim mən?

Xeyr, daha bəsdi! Yağışın, qarın altında Qəçrəş meşələrində çıxıb canım. Şəhər bazarına gətirdiyim bir araba odunu bir qara qalaca dəyişənə kimi nələr çəkdim! Daha bəsdi. Az-çox tanınmış şairəm. İndi mətbuata yaxın olmalıyam. Ədəbi mühitdə yazıb-yaratmalıdı yazıçı. Yiyəli, sahibli bulvar çinarları kimi şaxlanıb şuxlanaram. Dahi proletar yazıçısı Maksim Qorki incə ruhlu Çexova yazırdı: «Hörmətli Anton Pavloviç! Mən gözdən uzaq bir vilayətdə yazıb-yaratmaqla məşğulam. Lakin burda elə bil havam çatmır. Məni narahat edən məsələləri kiminləsə bölüşmək, sadəcə dərdləşmək istəyəndə ətrafımda bir kolleqa tapmıram. Amma yaxşı bilirəm ki, ədəbi mərkəz həm də dedi-qodular, paxıllıqlar, fitnələr, yalanlar mərkəzidir».

Uzaqgörən Çexov qısa və sərt cavab vermişdi: «Təəssüf ki, dedikləriniz doğrudur. Lakin ədəbi mühitdən kənardakı yazıçı tək qanadlı quşdur. Tək qanadla isə uçmaq olmaz».

İstər-istəməz ayaqqabıma baxdım. Ağ meşin üzünü tər kəsmiş, pəncəsi qara zolaqlarla doğram-doğram olmuşdu. Yastı-yapalaq dabanlarıyla o, kisəçi çəkələklərini xatırladırdı. Şalvarımın balaqları yerə sürtülməkdən qarı nənənin dişləri tökülmüş damağı kimi yontar-yontar idi. Pencəyimin didilmiş dirsəkləri it ağzından çıxmışdı sanki. Bu kökdə Bakıya getsəm, şəhərə özü boyda əskiklik, biabırçılıq gətirərdim. Dalğaların yaraşıqlı sahilə atdığı bir topa mazutlu yosun olmağı özümə sığışdıra bilməzdim. Amma meşəyə də qayıtmayacaqdım. İndi mən odla su arasında yox, cəhənnəmlə cəhənnəm arasında qalmışdım.

Göy üzü gömgöy idi. «Şahdağ» arxasından qalxan təyyarə bu qatı göylüyü cıra-cıra irəliləyir, qara tüstü zolaqları dar ağacının kəndirləri kimi yırğalanırdı. Sonra bu kəndirlərə düyün düşdü. Sonra o düyündən bir bulud topası asıldı. Bulud topası yonulub, sürtülüb insan şəklinə düşdü. Bu nədi, ilahi?

Dayan, bəlkə, Tanrı yol göstərir mənə! İntihar etməliyəm. Bəlkə, elə bu palıd ağacından?! Başımı əllərim arasına alıb bir xeyli tərpənmədim. Sıxıldı ürəyim. Genişlik, aydınlıq istədim. Göylərə, Tanrıya əl açdım. Amma bu nədi belə? Diqqətlə baxdım. «Qızıl qaya» dağının başında adam vardı. O, pencəyini çıxarıb harasa vızıldatdı, şalvarını iki para cırıb aşağı tulladı. Ağ tuman-köynəkdə heykəl kimi ucaldı dağın kəlləsində. O, əl-qol atıb bağırır, yumruğunu düyüb kimisə hədələyirdi. Şəhərə lov düşdü. «Padşahlıq bağı»ndakı skamyalarda mürgüləyən qocalar yerlərindən dik atıldılar. Yarı kefli, yarı ayıq şirbinlər ağızlarını köynəklərinin nifəsiylə silə-silə dağ başında durana baxdılar. «Yoxuş başı»nda böyük-kiçik bir-birinə dəydi. Yolu keçən sürücülər maşınlarını sağa çəkdilər. «Qatıqçı» tinində göy-göyərti, şor-qaymaq, tum, siqaret satan alverçilər «Yoxuş başı» meydanına tələsdilər. «Balıqçı» dükanının satıcıları, poliklinikanın həkimləri, xəstələri, «Şahdağ» restoranının aşpazları, yeyib-içən müştəriləri də küçəyə tökülüşüb «Qızıl qaya» dağına zilləndilər. Hadisənin qəhrəmanı atılıb-düşür, əl-qol atır, arabir göyə də tullanırdı. «Yoxuş başı»nda iynə atsan yerə düşməzdi.

Hər ağızdan bir avaz gəlirdi:

– Ərəb Mustafaya bax ey! Malades! Gör hara çıxıb! Vurub-tutan, basıb-kəsən olduğunu bilirdik. Bunun alpinistliyi də varmış!

– Eh, türmədən təzə çıxıb yazıq. Oğrudu-əyridi, hər nədi çəkib srokun da. Raykomun qapısında durub, ispalkomda iş axtarıb. Verməyiblər. O da üsyan qaldırıb, nümayişə çıxıb da ora. Əclaf məni başa salsaydı ona qoşulub mən də çıxardım ora. Tfu, belə zakona! – deyə çırtladığı tumun qabıqlarını qabağında duranın kürəyinə şappıldatdı şələbığ Müzəffər!

«Təcili yardım», «Yanğınsöndürmə» maşınları, avtomobil müfəttişliyinin motosikletləri, yol müfəttişləri «Qızıl qaya» yolunda tozu dumana qatmışdılar.

– Yoldaşlar, tez olun, Ərəb Mustafanı ölümdən qurtaraq! – deyə səsgücləndirici cihazlar özünü didib-dağıdırdı. – «Niyə donmusan yerində? Nə çaşıb qalmısan? Durub yüyürsənə «Qızıl qaya» dağının başına! Ağıl, zəka, istedad, dünyagörüşü də heç nə vermir həyatını qura bilməyənə! Amma odu bax, adını yaza bilməyən gör nə əməl, qurğuynan düzəldir işini? «Bud əti yemirəm, qıça yaxındı deyən ac oturar ömrü boyu», – deyə düşünür, üzülürdüm. Amma yox! Mən ölüb yerə girərəm, özümü belə gülünc vəziyyətə qoymaram. Axı mən bəy balası bəy, həm də o böyük Füzulinin balaca bir nəvəsiyəm – deyə düşünür, amma özüm də yavaş-yavaş «Qızıl qaya» dağına tərəf gedirdim. Birdən içimdən bir səs qopdu. Dayan! Tapdanmış yolla getmə! Şairin intiharı da şeiri kimi orijinal olmalıdı. Bir də axı Ərəb Mustafa intihar etmək məqsədiylə yox, artistlik etməyə çıxmışdı o dağın kəlləsinə. İntihar acizlik əlamətidi!

O dağın başında dünyaya meydan oxuyan Ərəb Mustafa çox inamla, həm də bacarıqla oynayırdı özünü dağdan atanın rolunu. Görkəmli aktyorlarımız Ələsgər Ələkbərov, Möhsün Sənani səviyyəsində çıxışı ona xoşbəxtlik gətirdi. Ərəb Mustafanı o dağın başından pəh-pəhlə endirib birinci katibin maşınında şəhərə gətirdilər. Səhəri gün Ərəb Mustafanı «Şahdağ» restoranına baş aşpaz qoydular.

Pedaqoji məktəbdəki dram dərnəyində hazırladığımız tamaşalar yadıma düşdü.

«Bahar suları» əsərində oynadığım bir rol həyatımda əsaslı dönüş yaradıb, tale yollarımda mayaka çevrildi. Bunlar xoşbəxtlik deyil, ya da taleyin hökmü deyil?! Müsabiqəyə çıxarılan tamaşamıza əsərin müəllifi də baxmış, oyunumu bəyənmiş, mənə qol-qanad verərək, ədəbiyyat aləminə qovuşdurmuşdu. Sonralar şeir, sənət cıdırlarında qələm dostlarım Qıratımın tozuna da çata bilmədilər. Gərək elə o vaxtı göylərə əl açıb: «Ey Tanrım, sən mənim ömrümdən kəsib «Bahar suları» müəllifinin ömrünə cala» – deyə yalvaraydım. Sonralar məni həyata

qaytarmaq səylərinin gözəl nəticələr verdiyini görüb sevinər, bu sevinclər ömrünü uzadar, bu gün necə yazıb-yaratdığımı görərdi.

***

Sözü bir yerə qoyub qərara gəlmişdik. Bu baxış müsabiqəsində birinci yer bizimdi. Bəli, əsl dəm-dəsgah da elə bundan sonra olacaqdı. O biri kollektivlər yana-yana qalacaq, amma bizi maşınlara mindirib Bakıya aparacaqdılar. Biz də qalib gəlmiş əsəri Dövlət Dram Teatrı səhnəsində Şeksprin «Otello», Cəfər Cabbarlının «Solğun çiçəklər» dramları qoyulan səhnədə oynayacaqdıq. Şan-şöhrətimiz tutacaq bütün dünyanı. Qəzetlərdə böyük-böyük şəkillərimiz çap olunacaq, radiolar bizdən danışacaq, televizorlar bizi göstərəcəkdi.

– Hamınızdan daha çox mənim oyunum gələcək xoşlarına – deyə Nurağa yuyulmamış çömçə kimi düşdü ortaya. – Əlüstü də teatra stajor götürəcəklər məni. Sonra da bir telefon zənginə Teatr İnstitutuna qəbul olunacam! – deyə qarışqa yuvasına çöp salmışdı Nurağa. Əcəb işdi. Şöhrətin Olimp zirvəsinə qalxmağı kim istəməz? Altında «Mersedes», əynində bahalı kostyum, yanında çamadan gəzdirənlər. Səndən intervü istəyən jurnalistlər qapında baş yarır. Eh, Nurağa heç özü də bilmədən səhnəyə, aktyorluq sənətinə gözə görünməz tellərlə bağlayırdı məni.

Lakin «könlü balıq istəyənin quyruğu suda gərək».

Evdə çörək yeyəndə dodaqaltı rol əzbərləyir, küçədə uşaqlarla «gizlənqaç», «çilingağac» oynayanda da hazırladığım obrazı oynayır, onun səsiylə danışırdım.

Mən dram dərnəyinin ən fəal üzvlərindən biriydim. Elə bil nə vaxtsa boylu anam səhnədə sancı çəkmiş, mamaçalar səhnədə tutmuşdular məni.

Müsabiqəyə Səməd Vurğunun «Vaqif» əsəriylə qatılacaqdıq. Ancaq bizim saydığımızı fələk saymadı. Oxumuz daşa dəydi. «Vaqif» rolunun ifaçısı, boy-buxunlu, yaraşıqlı Buğ-

dam ağır xəstələndi. Səhnədə qartal alınlı, iti baxışlı, ucaboy Buğdamın Vaqifinə baxmağa iki göz azlıq edirdi. Ancaq yazıya pozu yoxdur. Buğdam xəstələndi.

– Əşşi, noolar ey? Buğdam xəstədi, noolar? Xoruz banlamasa səhər açılmır? Mənə nə gəlib Vaqifi oynamağa? Boyum balacadı, hündürdaban tufli geyərəm! Başım dazdı, «Otello» dakı Yaqonun parikini qoyaram – deyə yana çıxan çənəsini barmağıyla yerinə oturdub, dərnək rəhbərinin çənəsinin altına girdi Nurağa. Dərs əlaçısıydı. Cəbrdə, həndəsədə ona çatmazdıq heç birimiz. Ancaq heçdən-puçdan mübahisə yaratmağına da heç kim çata bilməzdi. Burnu Zirə turpu kimi qızarıb şişir, gözləri hədəqədən çıxır, nəfəsi tıxanırdı dərs danışanda da.

Dərnək rəhbəri Nurağaya cavab vermədi.

Axı onun aləmində Vaqif bir ləçək titrəyişində «Rast»ın həzin ahənglərini eşidən bir bəstəkar, başı üstdən uçan durna qatarında şeir misrası görən bir şairdir. Amma Nurağa barıt çəlləyiydi. Yanından yel keçsə partlayardı. Amma haqlı cəza çəkirdi Nurağa. Paqqapaqla qaynayan qazandan kartofun birini oğurlamaq istəyəndə balaca qardaşı nöyüt butulkasını başına çırpmışdı. O gündü, bu gündü bir ötəri hirsləndimi, çənəsi buynuz kimi yana çıxırdı Nurağanın.

– Hə, Vaqifin sözlərini əzbər bilirəm. Mənə heç suflyor da lazım olmaz – deyə irəli iki addım atıb dərnək rəhbərinə zilləndi. Rəhbər susurdu. Nurağa bir əliylə çənəsini tutmuş, o biri əliylə də qayışının toqqasını sıxmışdı. Bu görkəmdə Nurağa Napoleon Bonopart roluna daha çox uyğun gələrdi. Amma neyləsə də incə ruhlu, təmkinli, həlim şairi oynaya bilməzdi. Dərnək rəhbəri geriyə boylandı. Məşq otağında hamı qarıldaşır, ağız deyəni qulaq eşitmirdi. O:

– Ay uşaqlar, bir dəqiqə, aram olun, – dedi. Qurbağa gölünə daş atdılar sanki. Milçək vızıltısı qulaq deşərdi. – Biz müsabiqəyə aktual bir əsərlə gəlməliyik. Yəni müasir həyatımız görünməlidi o əsərdə.

Dərnək rəhbəri böyür-başı sürtülməkdən ciyər kimi ağarmış dəri portfelindən iki barmaq qalınlığında bir kitab çıxartdı:

– İndi əksər teatrlar bu pyesi oynayır, – deyib kitabı hamıya göstərdi. – «Bahar suları»dı bu əsərin adı. Müharibədən təzə çıxıb ölkəmiz. Bahara qovuşuruq. Bu bahar oynaq bir ovqat gətirib ürəklərə. Təzə ab-hava, təzə bir nəfəs gətirib həyatımıza. İndi bizim vəzifəmiz müharibənin vurduğu yaraları sağaltmaqdı. Kolxozlarda əmək meydanları qızışır. Taxılçılar, pambıqçılar sosializm yarışlarını gücləndirir. Məhsuldarlıq birə-beş artır. Təzə əkin sahələri ayrılır. Bahar suları Qubanın meyvə bağlarına, Lənkəranın çay plantasiyalarına, Muğanın pambıq tarlalarına bolluq gətirir. Gəlin biz də inkişafdan geri qalmayaq. Bu əsərlə tamaşaçıların ürəyindən tikan çıxaraq. «Ura», «Birinci yer bizim olacaq», «Bakıda bizi alqışlayacaqlar» – bağırdılar gənc aktyorlar. Gurultulu alqışlar titrətdi məşq otağını. Ancaq «Vaqif» roluna əli çatmayan Nurağanın gəmiləri batmışdı. Susurdu. Onun qanlı baxışları dərnək rəhbərinin gözündən yayınmadı. – Mən bu əsərin rollarını bölmüşəm, – dedi.

Biz məəttəl-məəttəl dərnək rəhbərinin ağzına baxırdıq. «Görəsən, mən də rol alacağammı bu tamaşada», – deyə düşünür, intizar çəkirdik. Rəhbər Nurağaya yaxınlaşıb əlini çiyninə qoydu. – Özünə bir kalife şalvar tikdirərsən. Uzunqıç çəkmələrin olmalıdı. Köynəyin üstündən də bir soldat qayışı vuracaqsan. Əsərdə kolxoz sədrini sən oynayassan, – dedi.

Nurağanın aynası açıldı. Əllərini bir-birinə çırpıb:

– Əlbəttə, sonra Bakıda göstərəcəyik o tamaşanı. Məni teatrda stajor saxlayacaqlar. Bir telefon zəngiylə instituta qəbul olunacam! – dedi.

Teatr rəssamı tamaşaya orijinal tərtibat vermişdi. Səhnə arxasındakı iki haçalı Şahdağı, onun ətəklərində əriməkdə olan qar topaları! Dağın döşündə bulaqlar çağlayır. Sol tərəfdə alma ağacları, budaqlara söykənmiş nərdivanlar görünür.

Mən səhnə arxasındaydım. Nimdaş pərdələrin güvə vurmuş yerlərindən tamaşaçı zalına baxırdım. Zalın sağ və sol yanında dəyirmi çəlləkləri xatırladan lojalar, birinci sırayla səhnə arasında, üstünə meyvə vazaları qoyulmuş münsiflər heyətinin stolu da aydın görünürdü.

Parterdə bütün yerlər tutulmuşdu. Lojadakı xanımlar gizli-gizli güzgülərə baxır, ətirlənir, boyalanır, boyun-boğazlarındakı qızılları qaydaya salırdılar. Analarıyla gələn uşaqlar cərgələr arasında bardaş qurmuşdular. Giriş qapıları ağzında papaqları əllərində ayaq üstə duranlar da nəfəs çəkmir, pərdənin açılmasını gözləyirdilər.

Münsiflər heyətində qızğın iş gedirdi. Raykomun təlimatçısı Əli Tərtərli yoldaş barmaqları əsə-əsə proqramı o üz-bu üzə çevirir, sanki orda nə isə axtarırdı. Birdən adım xoşuna gəlməz?! Soyadımın axırında bir «bəy» sözü vardı axı?! Tamaşadan çıxarsalar neylərəm? Məni soyuq tər alıb gedirdi. Onun yanında qolunu masaya dirsəkləyib fikirli, dalğın oturana baxdım. Ancaq tanımadım. «Yəqin, Bakıdan gəlib», düşündüm. Sakit, düşüncəli, həm də nədənsə çox şirin gəldi mənə. Gözü səhnədəydi. Amma üzü gülür, dodaqları səyriyirdi. Qalın, dalğalı saçlarını barmaqlarıyla tez-tez daraqlayırdı. Dolu birçəkləri az qala almacıqlarını örtür, mavi gözlərindən şanı üzümünün şirinliyi səpələnirdi ətrafa. Qəribədi, pərdə açılmayıb, ancaq orada ürəkaçan nə var ki, o qonaq da belə gülür? Bəlkə, əsərdə baş verənlərdən xəbəri var? Boynunda qalstuk yoxdu rəsmi tədbirə Bakıdan göndərilən bu qonağın. «Sıxıntı xoşlamır, sərbəstliyi sevəndi» – düşündüm. Dama-dama pamazı köynəyinin yaxası açıqdı.

Biz pərdələr arxasında sudan çıxmış cücələr kimi bir-birimizə qısılmışdıq. Bayaqdan bizə «Çalışın zala baxmayın. Özünüzü itirməyin. Ucadan danışın», deyə son məsləhətlərini verən dərnək rəhbəri, nəhayət, zala qayıdıb münsiflər heyətinin sədrinə: – Biz hazırıq. Başlamaq olar, – dedi.

Sədr Quba Dövlət teatrının baş rejissoruydu. Başını razılıqla tərpədib ayağa durdu və arxaya boylandı. Səs-küy xırp kəsildi. Sonra ordan-burdan çəpik səsləri eşidildi. Sonra birdən çəpiklər dağ çayı kimi coşdu.Baş rejissorun düyünlü qaşları açıldı. Qalstukunu bir az da sıxıb zala baş əydi. Sonra üzünü səhnəyə tutaraq əllərini iki dəfə bir-birinə şappıldadıb: – Başlamaq olar, – dedi.

Mən tamaşada Uğuru oynayırdım. Uğur cəbhədən təzə qayıtmışdı. O, kəndlərində yeni yollar salmaq, uşaq bağçaları, məktəblər tikmək eşqiylə aşıb-daşan bir gənc idi.

Birinci şəkildə çıxışlarım çox soyuq keçdi. Tamaşaçıların ürəyinə yol tapa bilmədim. Sonda bir-iki çəpik çalındı. Niyə gurlamadı zal? Yer-yerdən fit çalıb təpiklərini niyə döymədi tamaşaçılar? Hanı artisti göylərə qaldıran alqışlar? Buna nail olmasam, deməli, adi bir mehəm. Amma qasırğa, tufan olmalıyam səhnədə.

İkinci şəkildə tərəf-müqabilim Nurağa idi. O, kolxoz sədri Alxanı oynayırdı. Mən Alxana yaxınlaşıb – maşallah, kəndi tanınmaz etmisiniz – dedim. Alxan: «Təşəkkürü-zadı qoy cibinə. De görüm, sən əsgər gedəndən burda bir əsaslı dəyişiklik var, ya yox?», soruşdu. «Əlbəttə, kolxoz varlanıb, kəndə su çəkilib, evlərdə radio oxuyur», – dedim. Bundan sonra Alxan–Nurağa gələcəkdə baş verəcək yenilikləri sadalamalıdı. Ancaq Nurağanın çarxı döndü – tutması tutdu. Söz demək əvəzinə gözlərini döyə-döyə susdu. Ətəyini çəkdim. Cınqırını çıxarmadı. Dəhşət! Bakı Dövlət Teatrındakı stajorluğuma balta çaldı Nurağa. Bir telefon zəngiylə instituta girmək şanslarım boşa çıxır, qucaq-qucaq gül dəstələrinə, qəzet səhifələrində bədənnüma şəkillərə, ən bahalı kostyumlara daha heç vaxt əlim çatmayacaq! Baş rejissor uzun əliylə köynəyinin qolunu çırmalaya-çırmalaya bərkdən öskürdü. Ancaq Nurağa özünə gəlmədi. Raykomun nümayəndəsi Əli Tərtərli uzun barmaqlarını az qala Nurağanın gözünə soxacaqdı:

– Ə…ə… Niyə qurumusan? Ağzında qovut var? Sözünü de dana! – bağırdı. Daşlar dilə gələrdi. Amma Nurağa susurdu. Neyləyim? Qolaylanıb bir şillə çəkim çənəsinə?! Bir səda qopdu içimdən. «Yox, belə olmaz! Özünü ələ al! Vəziyyətdən tez bir çıxış yolu tap!» Nurağanın qolundan tutub astaca silkələyərək:

– Ay Alxan əmi, – dedim, – yəni sən mənə onu deyirsən ki, kəndin ən kasıbı o Alı kişi də daha arpa çörəyi yemir? Qalmaqal Mədədin cındırından cin hürkərdi, indi kostyumun birini çıxarıb o birini geyir?

«Bakıdan gələn» – çox gözəl, – deyib yerindən sıçradı:

– Sağ ol, oğlum, – deyərək əllərini başı üstə qaldırıb bir neçə çəpik çaldı. Ürəyim yerinə gəldi. Sevincdən dağa döndü. Bəs necə? Məni alqışlamışdılar. Özü də uşaq-muşaq yox, «Bakıdan gələn», həm də münsiflər heyətinin üzvü. Zalda milçək uçsaydı səsi eşidilərdi. Nurağa aram-aram gəzişir, hərdən özünü boğur, fikrə gedirdi. Birdən səhnənin ortasında üstümə şığıdı:

– Hə, Uğur bala, hələ cavansan. Amma çox oxuyan yox, çox gəzən çox bilər. Sən faşitləri qıra-qıra dünyanı dolanıb kəndimizə qayıtmısan. İndi mənə de görək, buranın gələcəyini necə görürsən?

Dərdimi təzələdi. Eh, yuxulu da, oyaq da kəndimiz deyildimi gözümün önündə geniş küçələri, hündür binalarıyla şəhərə çevrilən, səhnədə olduğumu unutdum. Ağzım açıldı, özü də nə açıldı ki…

– Ey atam, ey anam, – deyə birinci sırada bir-birinə sığınan qocalara tutdum üzümü. Mən istəyirəm ki, kəndimizdə evlər planla tikilsin. Əyri-üyrü dar dalanların yerində asfalt küçələr, meydanlar görək. Mən istəyirəm ki, elektrik yalnız evlərimizə işıq deyil, tarlalara da su versin, taxıl döysün, yük daşısın! Bağların mer-meyvəsini yığıb-yığışdırmaq olmur. İstərdim ki, kəndlərimizdə konserv zavodları, emal kombinatları açılsın.

Mən mətndən çıxmışdım. Amma bunları deməsəm ürəyim qubar eləyərdi. Bir ara özümü yığışdırmaq istədim. Amma el dərdini deyib gözdən olmağı daha vacib saydım.

– Mal-qaramızın sayı gündən-günə artacaq. Böyük bir yağ-süd kombinatı tikək. Bir binə atmaq istəyəndə daşı Bakıdan gətiririk. Özümüzün bir kərpic zavodumuz olsun.

Münsiflər heyətinin sədri karandaşını «Badamlı» butulkasına çırpır, dərnək rəhbəri mənə yumruq göstərirdi. «Bakıdan gələn» həyəcanlı görünürdü. Hər dəfə udqunanda hülqumunu üstdən basan qara düymə də dartınıb gərilir, onu boğurdu. Əl atıb köynəyin yaxasını düymədən çıxartdı. Rejissor uzun qolunu irəli atıb mənə nəsə demək istədi. Lakin «Bakıdan gələn» bu qolu aşağı çəkdi. Rejissor onu tərs-tərs süzərək:

– Siz müəllifsiniz. Sizə böyük hörmətim var. Ancaq xahiş edirəm, hissə qapılmayasız.

Müəllifin ciddi nəzərlərini görən rejissor yavaşıdı:

– Axı necə deyim? Özünüz də bilirsiniz ki, teatrın öz qanunları var. Aktyor roldan çıxır. Kitabdakı mətndə belə söhbətlər yoxdur – deyə əlindəki «Bahar suları» kitabını yellədi. – Aktyor qərəzli improvizasiyalara yol verir. Atmacalara, eyhamlara oxşayır bəzi söhbətləri. Biz rayonumuzu yıxıb-sürüməyə yığışmışıq bura?! Oturduğumuz ağaca balta çalaq? – Başının hərəkətiylə sol tərəfində oturmuş Əli Tərtərlini göstərdi. – Axı raykomun nümayəndəsi məsələmizi büroya çıxardar. Teatrı bağlatmaq istəyirsiniz?

Müəllif daha rejissoru eşitmirdi. Azacıq irəli meyilli qaməti bir az da əyilmiş, fikri-zikri səhnədəydi. Onun ciddi baxışları məni bir az karıxdırdı. Nə edəcəyimi bilmədim. Amma toyuğu soyub-soyub dümbək üstə bıçaq sındırmaq istəməzdim. Elə bu an «Bakıdan gələn»in səsini eşitdim:

– Cavan oğlan, işini gör, rolunu oynamağında ol! Bir belə yanğı hardandı səndə? Mühakimələrin çox yerində, aktual, həm də həyatidi. Cəsarətli ol, qorxma! Sözünü de, rolunu oyna, – deyib məni bir az da ürəkləndirdi. Mən də «ölmək ölməkdi, daha xırıldamaq nədi?» düşünüb, təzədən qızışdım.

– Qudyalçay kəndimizin böyründən axır. Sahilində bir Karlovı-Varı kurortu görürəm. Bir zamanlar Koroğlu keçib bu yerlərdən. Sali Süleyman, Tunc Musa kimi dünya şöhrətli pəhləvanlar bu torpaqda boya-başa çatıb. İndi onların nəvələrinindi meydan. Burada bir idman kompleksi tiksələr olimpiya yarışlarının bütün medalları kəndimizə gələr. Bizim Şahdağın ətəklərində xizək idmanı üçün gözəl, təbii şərait var. Qoy Şahdağımız yüksəliş, ucalıq simvoluna çevrilsin. Bu torpağın otları qaymaq kimi, suları bal kimi, havası yarpız ətirli, günəşinin telləri ana əlləri kimi şəfalıdır. Qolumuza qüvvət, dizimizə taqətdi hər zərrəsi. Onun tozuna da qurban! Dərəsinə, düzünə, onun özünə qurban olaq!

Zalda zəlzələ qopdu sanki. Təpiklər döşəmələri partladır, fitlər qulaq deşirdi. «Sağ olsun bu əsəri yazan», «Süngüdən də güclüdü qələm» – deyə bağırışırdılar. Rejissor arxaya çevrilib tamaşaçılarla üz-üzə durdu:

– Sakit, sakit, yoldaşlar! Mənasız replikalarla işimizə mane olmayın!

Lakin rejissorun sözünü söz saymadı tamaşaçılar. Alqış sədalarıyla çaxnaşdı, silkələndi zal. Rejissor «Bakıdan gələnə» baxdı:

– Neyləyək, yoldaş müəllif? Bizi işə saldınız, – deyə mızıldadı. – Buna son qoymaq lazımdır. Çıxın səhnəyə, o Uğuru oynayanı qulağından tutub atın çölə. Ya da başa salın ki, özbaşınalıq etməsin. Yoxsa mən tamaşanı dayandırmalı olacam!

«Bakıdan gələn» iri addımlarla səhnəyə tərəf getdi. Pilləkənin qollarından tutub səhnəyə qalxdı. Əlinin içiylə çal saçlarını daraqladı. Mənə tərəf gəldiyini gördüm, qorxu düşdü canıma. «İctimai yerdə hərzə-hərzə danışmısan, İşıqlı cəmiyyəti iftiralarınla ləkələmisən», deyib səhnədən qovsa, neylərəm? Ehtiyatla üzünə baxdım. Gözləri benqal şimşəkləri kimi qaynayır, dodaqları səyriyirdi. Yanıma çatınca düz xətlə ayrılmış saçlarımı qarışdırdı. Qolumdan tutub səhnə önünə çəkə-çəkə:

– Əziz tamaşaçılar, gözünüz aydın olsun. Elə indicə, bax bu səhnədə biz qəlbi, ruhu şeir dolu, çox istedadlı və cəsarətli bu gənci kəşf etdik. Mən əsərin müəllifi İlyas Əfəndiyevəm. Müəllifin yazdığı qanundu. Ona kimsə müdaxilə edə bilməz, bir sözünü dəyişə bilməz. Amma burda Sədrəddinin əsərə artırmaları hamının ürəyindən oldu. Aktyorun yaradıcı müdaxiləsi əsərə xeyir gətirirsə, onu qəbul etməliyik. Sədrəddinin obrazı dolğunlaşdırma təşəbbüsü ümumi işə xeyir gətirdi. Əsər deyərəm ki, bax, bu Sədrəddinə görə uğur qazandı. Mən dərnək rəhbərinə, bütün kollektivə öz təşəkkürümü bildirirəm. Amma gənc aktyor Sədrəddinə – kim bilir, bəlkə, gələcəyin alovlu bir şairinə, yazıçısına bu başdan müvəffəqiyyətlər arzulayıram.

Alqış sədaları zalı titrədirdi. Gül dəstələrini İlyas müəllim götürür, başının üstünə qaldıraraq hamıya göstərir, sonra qucağıma qoyurdu. Gurultulu alqışlar məni şöhrətin zirvələrini fəth etməyə ruhlandırırdı.

Baxış müsabiqədə birinci yeri götürdük. Sonra bizi avtobuslarla Bakıya apardılar. Əsəri Milli Teatrın səhnəsində oynadıq. Görkəmli teatr xadimləri ifaçılığımızı yüksək qiymətləndirib hərəmizin döşünə bir laureat nişanı sancdılar. Lakin nə məni, nə də Nurağanı teatrda stajor saxlamadılar. Bir telefon zəngiylə instituta düzəltmədilər. Ancaq hələ Qubada məni səhnə önünə gətirərək İlyas müəllim:

– Sədrəddin nadir istedaddır! Mən onun şairliyinə heyranam, – deməklə mənə həyat yollarımı göstərmişdi.

1955-ci ildə İlyas müəllim «Bahar suları» əsərini yeni redaktədə çap etdirdi. Amma həmin əsərdə oynadığım ilk rol həyatımda əsaslı rol oynadı. Məni incəsənətə bağladı, ədəbiyyata gətirdi.

Gözüm yoxuş yolunda, qulağım səsdəydi. Ha indi gələr, ha bir azdan qalxar bir maşın! – düşünür, intizar çəkirdim.

Bir azman fırtına girdabında qayığım puç qoz kimi partlamışdı. Sellərin ağzında çapalayırdım. Bir çöpə, samana güman varsa, o da yoxdu. Üfüqdə bir qığılcım qaynağı görsəydim, deyərdim, ah, nə gözəl, orda şəfəq-nizələr daşlara, qayalara çırpılır, orda torpaq var, nicat yaxındadı. Ümidimin gücü ürəyimə təpər verərdi. Dözərdim, üzərdim, çıxardım. Amma indi sanki bir səhra cəhənnəmindəyəm. İçim təndir, dilim kösöv, dodaqlarım kərpic-kərpic. Hardasan, gəl, ey Tanrım, o sehrini göstər. Qoy mübarək əllərinlə bu qumluqlarda bir «Abu-zəmzəm» bulağı çağlasın!

Buradan «Yoxuş başı»nın başlanğıcı görünmürdü. Ancaq yolun yoxuşa dirənən yerində bir maşının şaqqıltıyla ikinci «skorost»a keçirildiyini eşitdim. Bu şaqqıltı «Volqa»nınkıydı. Ya qismət! Bəlkə, heç saxlamadı, dayanmalı olmadı? «Səbir ilə halva bişər» deyə özümü sakitləşdirirdim. Bəli, döngədə «Volqa»nın başı göründü. Əşşi yox. Hanı məndə o bəxt?! Əvvəla, belə maşın sahibi buraların «ikinci sort» restoranını bəyənməz. Lap bir nəfəs dərməyə dayansa da, belə maşının sahibi özünə yol yoldaşı eləyərmi məni? Yox! Heç ağlım kəsmir.

Maşın mənə çataçatda sürətini azaltdı, yavaşıdı bir az. Deyəsən, içəridə bir əl eləyən də oldu. Gözlərimi ovuşdurdum. Məni qara basmır ki? Yox, əl bir də yelləndi. Arxasınca baxdım. Maşın «Yoxuş başı» meydanına dönsə, deməli, bir işıq var. Dönməsə, hara gedir, niyə gedir, nəyimə gərək? Amma o, «Şahdağ» mehmanxanasının qabağında dayandı. Salonun arxa, sağ qapısı aralandı. Handan-hana içəridən bir əl çıxdı bayıra, sonra bir ayaq qoyuldu yerə. Dalğavari saçları dağılmış bir kişi çıxdı maşından. Barmaqlarının darağıyla saçlarını geri oturtdu. O, yay kimi gərilmiş süvari ayaqları üstə dəyanətlə dururdu. Sürtülmüş cins şalvarında pırtlayan diz yerləri tennis topları kimi dəyirmiydi. Köynəyinin ətəklərini toqqa-

sının altına keçirtdi. Əllərini belinə qoyub geri qanrılaraq azacıq irəli meyilli qamətini şaxlandırdı. Amma nə xeyri. İrəli atılan birinci addımdan sonra qamət öz əyriliyinə qayıtdı. O, qollarını irəli-geri ata-ata mənə sarı gəlirdi. Addımları inamlı, qəti, qeyzli-əsəbiydi. Əlində bir çubuq olsaydı, deyərdin kimisə çırpacaq. Yaxınlaşdıqca işıqlı gözləri böyüyür, sifəti sərtləşirdi. İlyas müəllim deyilmi bu? Bəli, özüdür ki, var.

Ah, nə gözəl! Bəxtimə gün doğdu. Qurban olum xeyirxahımı uğuruma gətirən Tanrıma. Uşaq kimi sevinirdim. Qabağına yüyürüb boynuna atılmaq istədim. Ancaq ürək eləmədim. Əsəbləşdiyi get-gedə yeyinləşən addımlarından bilinirdi. Əlbəttə, ürək yanmasa gözdən yaş çıxmaz. Məni şilləməyə haqqı var. Qayışını açıb mənə bir turşulu aş yedirməyə də ixtiyarı çatar. Çünki əsl kişidir, üzdə bir cür, sözdə başqa cür olanlardan deyil. Əqidəsində dönüklük yoxdu. Biganəliyə nifrət əsərlərində qızıl xətlə keçir. Onun «Boy çiçəyi» pyesi insanların daşlığını, quruluğunu parçalayan bir qılıncdır. Nargilənin anası özünə ər tapır. Lakin ər olacaq şəxs «Ya mən, ya da sənin qızın» deyə şərt qoyur. Ana əri seçir. Qızcığaz didərgindir. O özündən xeyli yaşlı bir zavod direktoruna sığınır. Ona ərə getməyə də hazırdır. Müəllif zavod direktoru Həsənzadənin diliylə insan mənəviyyatını gəmirən biganəliyə nifrətini, qəzəbini bildirir. Məni qolumdan tutub ayağa qaldırıb, oturuşduruşuma göz qoyub, yaradıcılığımı izləyib, plenumlarda şeirlərimdən nümunələr gətirib. Paxıllarımın puçunu burub. Yaradıcılıq səfərlərinə gedəndə məni öz qrupuna saldırıb. Əlbəttə, bu qarışıq saç-saqqalım, düymələri qırıq köynəyim, balaqları sürtülməkdən didilən şalvarım, burnu balıq ağzı kimi açılmış ayaqqabılarım məni alicənablar, şöhrətlilər, hörmətlilər cərgəsində görmək istəyən yazıçını sarsıtmaya bilməzdi. Ata üçün kasıblıq, əli gətirməməzlik bir müsibətdirsə, övladını əfəl, nankor görmək gündə min bir dəfə ölməkdi.

Nizə baxışları gözlərimə dikildi. Bu baxışlar arxa tərəfimdəki əzəmətli «Qızıl qaya» dağına tuşlansaydı dağ parça-parça olub tökülərdi.

– Sədrəddin, burda nə gəzirsən? Sən axı gərək indi nəşriyyatda, iş-gücdə olaydın. İslam Səfərlini nə vaxt görsəm, deyir Muzqızdan qonorar almaqdan gəlirəm. O gün Sabir bağında Süleyman Rüstəmə rast gəldim. «Durna» əsərinin librettosunu göstərib gülə-gülə dedi ki, sənin o gözəl şairin Sədrəddin çap eləyib, sağ olsun. Mən də sevindim ki, işlərin yaxşı gedir. Şairlərlə müqavilələr bağlayırsan, bəstəkarlara mahnılar sifariş verirsən, nüfuzun, hörmətin… Dayan görək, – deyə bir addım geri çəkildi. – Bu saç-saqqal nədi? Anan Sayad bacı qıvraqdımı?

– Bəli, çox sağ olun, duaçıdı.

– Burda məzuniyyətdəsən, yəqin?

– Yox, nəşriyyatı bağlayıblar.

– Nə? Əhə, əhə, – öskürdü iki ağız. – Deyirəm axı. Sazaq, şaxta ağac şivlərini daha tez vurur. Tatar şairi Musa Cəlil almanların ölüm düşərgəsində necə nikbin şeirlər yazıb. Sənin yaşıdın Xəlil Rza «Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram» deyib sovet imperiyasını diz çökdürür. Ona güllə atırlar. Amma əqidəsindən dönmür, iradəsi qırılmır. Amma nəşriyyat bağlanıb, sənin qol-qanadın qırılıb! Burda niyə dayanmısan bəs?

– Münasib maşın düşsə Bakıya getmək istəyirəm.

Maşının qabaq şüşələrini silən Timuçin geri çevrilərək:

– Ata, Sədrəddin Bakıya getmək istəyirsə, gəl aparaq avtovağzala, ordan da yola salaq da, – dedi.

– Yox, – deyə bir an fikrə getdi İlyas müəllim. Sonra da – burada məsələ bir az ciddidi, – deyə başını narazılıqla bulaya-bulaya Timuçinə yaxınlaşdı. – Arşını yüz ölç, bir biç, – deyiblər. Sən də məsələnin mahiyyətini öyrənməyə çalış. Tez-təcili başından eləmə! – Qulaqlarımı şəkləmişdim. – Eşitmişəm içkiyə də qurşanıb, – dedi. Yer yarılsaydı yerə girərdim. – Yoxsa

Bakıya yola salmağa nə var ki. Amma bu çıxış yolu deyil. Görək neynərəm, ay Timuçin – deyib mənə tərəf çevrildi. – Sədrəddin, Bakıda cırcırama qabıq tökür. Bu istidə neyləyəcəksən orda?

– Yazıçılar İttifaqımızın sədri Mehdi Hüseynlə dalaşacam.

İlyas müəllimin nəzərləri sərtləşdi:

– Mehdi Hüseyn qartaldı. Adı gələndə bayquşlar tük tökür. Ölkəmizdəki durğunluq dövrlərində Yazıçılar İttifaqında bir «çalpapaqlar» qruppası yarandı. «Kora vermə, mənə ver, şilə vermə, mənə ver» deyirdi başçıları. «Rusiyada orta bir yazıçıya bağ evi, maşın, itə baxan, aşpaz, bağban da verir Litfond. Deyirdi: – Tolstoyun harası artıqdı məndən? Mənə də iki katibə ver, ildə bir dənə «Hərb və sülh» qoyum ortaya». Əlbəttə, Mehdi Hüseyn də «xox»dan qorxan deyil. İpini çəkib oturtdu yerində. Nöqsanı üzə, pisə pis dediyinə görə çoxu qanlı bıçaqdı Mehdiynən. Amma yaxşı əsər yaz, ol gözünün işığı. O gün Anarın bir povestini müzakirə etdik. Şirin dili, dərin müşahidəsi var dedi hamı. Mehdi də birotaqlı mənzil verdirdi ona. Ə…ə…ə, Sədrəddin, – deyə iki ağız öskürdü. – Əhə, əhə! – Amma indi bu «əhə»lər əsəbdən, gərginlikdən gələn yox, fərəh, qürur dolu «əhə»lərdi. Çöhrəsi allanmışdı. – Ay bala, qoç döyüşünə qoç gərəkdi. Mehdi Hüseynlə dalaşanıma bax ey. Ə… ə… kimsən axı? Nəyin var? «Məktub yetişmədi», «Poçt qutusu», «Şeyx Şaban» hekayələri kimi bir hekayə, Mir Cəlalın «Bir gəncin manifesti», Mirzə İbrahimovun «Gələcək gün»…

Özümü saxlaya bilmədim:

– İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» romanı…

– Hə, heylə sanballı əsərlərin birini yazaydın. Yoxdu hələ, amma keçən il yeni şeirlərin rezonans doğuranda Mehdi məni təbrik elədi. Təəssübkeşliyimi o da yaxşı bilir. Onun nəyindən narazısan? Bəlkə, hansı redaksiyadasa səni get-gələ salıblar? Bəlkə, gedib Peredelkino, yaxud Yalta yaradıcılıq evində ha-

vanı dəyişəsən? Bəlkə, Mehdi Moskvadakı «Xarici komissiya» şöbəsindən xahiş eləsin ki, səni Avropa ölkələrindən birinə ezam etsinlər?

– Yox! Mehdi müəllim bir qulluğa qoysun, bir iş versin, işləyim.

– Nə iş? Sənə iş veriblər də. Yazıçılar İttifaqının üzvüsən. Mehdi Hüseyn şəhərin mərkəzində üçotaqlı mənzil verib sənə. Yaxşı bişmiş qələmin var. Problemli məsələlər qoy. Yazıçısansa, demək, xalqın yükünə çiyin verməlisən. Oğlanlarımız yad ölkələrə çörək dalınca qaçır, qızlarımız evdə qarıyır. Hansını deyim? İş istəyirsən, balam, yaz, yarat da.

– Yox, mən dəqiq bir əmək meydanı, front istəyirəm. Çalışım, özümü göstərim. Yaradıcılığımla fərəhlənim. Qürur hissim dəryalara sığmasın. Get-gedə artaram, ucalaram mən.

– Səni gözəl başa düşürəm, Sədrəddin – dedi İlyas müəllim. – Gələcəyin, yaradıcılığın səni narahat edir. Bu məni çox sevindirir. Sən çıxış yolu axtarırsan.

Birdən sanki qulağının dibində qırıcı təyyarə şığıdı. Diksinən kimi oldu. Başını geri ataraq:

– Topu meydandan çıxartmısan. Güvəndiyim dağlara qar yağdırmısan. Amma səni qırılmağa qoymayacağam. İstedadlı şairsən. Bəlkə, hələ iliyinə tam işləməyib, qanını qaynatmır sənət atəşi? Əlindəki ağac sənə düyünlü görünür. Amma mən elə ki, bir əsərimin sonuncu nöqtəsini qoydum, sevincim yerəgöyə sığmır, məni təbrik edəcəklər, teleqramlar, telefon zəngləri gələcək. Amma bir bağlı qapı açacaqmı, kor gözə bir iynə ucu işıq olacaqmı? Əsərlərim həyəcan təbilləridir. Mən onların əks-sədalarını eşitmək istəyir, bu təbillərin daha gur səslənməsinə çalışıram. Arada ispan yazıçısı Servantesin ədəbi taleyinə küsməyim də olur. O Servantes hələ sağlığında böyük xalq məhəbbəti qazanıb. Onun «Don Kixot» romanının qəhrəmanlarına heykəllər qoyulub. Əsər Avropa dillərinə tərcümə olunub. Bəs sən də sənətkarsan axı, ay Sədrəddin, xalqın mə-

həbbətini qazanıb, millətin adına şərəf gətirməkdi vəzifən. Böyük Viktor Hüqo Fransanın mərkəzinin Paris yox, elə Hüqo adlandırılmasını istəyirdi. Bəlkə, gələcək nəsillər böyük yazıçının həyəcan təbillərini daha yaxşı eşidər, yazıçının arzularını həyata keçirərlər. Sədrəddin, inanıram ki, sən söz sənətinin Olimp zirvəsinə qalxacaqsan. Özü də bel-külüng köməyiylə yox! Dişin, dırnağınla çıxacaqsan o zirvəyə. Get, otur maşına! – deyərək ayağının birini irəli qoydu və bu zaman qolu da yerindən oynadı, deyəsən. Sifətimdə şirin bir göynərti duydum. Amma yox, o mənə əl qaldırmamışdı. Mənə elə gəldi ki, ləngisəm, ayaq sürüsəm məni qamarlayıb maşına basacaq. Ancaq tənə daşları altında dağım-dağım olmuşdum. Mən başımı qaçırmaq istəyirdim.

– Düş qabağıma! – bunu təkidlə dedi İlyas müəllim.

Bilirdim, yaxşı başa düşürdüm ki, indi onu hövsələdən çıxaran mənim düşkünlüyüm, miskinliyimdi. Həyan olmaq, sığınana qucaq açmaq, quyudakına ip sallamaq, səhraya su, kor gözə işıq olmaq istəyi İlyas müəllimin xislətindəydi. O, mənim xətrimi çox istəyirdi. Başqası olsaydı indi bu «Yoxuş başı»nda məni toza-tüstüyə basıb uzaqlaşardı.

Amma bəzən çox gərgin situasiyalarda da İlyas müəllim birdən xəyala dalırdı...

Səhnəmizə onlarla xeyirxah, insanpərvər obrazlar gətirən sənətkarın həyatı gözəl bir roman mövzusu ola bilərdi. Hələ gənclik illərində yasaqlara, qadağalara çox məruz qalmışdı. Yaxşı ki, yaxşılardan xali deyil dünya. «Kommunist» qəzetinin redaktoru Əli Vəliyev onu dəfələrlə cəlladların əlindən alıb, cəhənnəmin qapısından geri götürmüşdü. Başı bəlalar çəkən yazıçı indi mənim miskin taleyimə biganə qala bilməzdi.

Maşına tərəf gəldiyimi görən Timuçin kabinədən çıxıb mənə yaxınlaşdı. Altdan-altdan gülümsəməyindən sözlü adama oxşayırdı.

– Nərd aləmində təzə bir şey öyrənmisən bu keçən vaxt ərzində, yoxsa yenə həmən həmən – köhnə hamam, köhnə tasdı?

– Əşşi, yox ey! Ha çalışdım ki, zərləri cütləməyi öyrənim. Ancaq bunu özümə ar bildim. Sənin kimi əldən qaçmağı da şəstimə sığışdırmıram. Ancaq zəri ovcumda atıb səni udmağa hazıram.

– Nərdin yaradanını axtara-axtara Kislovodskidən gəlib çıxmışam Qubaya, – deyib, yarama duz basdı Timuçin. Axırıncı dəfə Masallıda Üzeyir həkimin əlli illiyində xəlvətə salıb oynamışdıq. Bir tas udmuşdu məni.

– Hə, əlbəttə, biz də yerimizdə saymırıq. İnkişaf, irəliləyiş var, dərsinə baxarıq. Qocadan bala dağı, ilandan quyruq dağı getməz, – dedim.

Timuçin uğundu…

Maşına oturduq. Timuçin ayağını qaza qoydu. Sərvlər, çinarlar arasıyla uzanan «bulvar» arxada qaldı.

Yol ayrıcına çatırdıq. Timuçin sürəti azaltdı və İlyas müəllimə baxdı:

– Maşını hara sürüm, ata? Bakıya, yoxsa bibimgilə? Sən axı hərdən raykomun qonaq evinə də düşürsən? – barmaqlarını sükan üstdə oynatdı narahat Timuçin.

İlyas müəllim yay aylarını Kislovodsk kurortlarında keçirirdi. Ancaq Bakıya dönərkən yolüstü Qubada bacısı Məhbubəgildə bir neçə gün qalır, məktəbli uşaqlarına təzə pal-paltar, dəftər-kitab da alırdı. Sonra raykomun təşkilatçılığı ilə Susay, Buduq, Xınalıq yaylaqlarında sağıcılarla görüşürdü. Çoban alaçıqlarında gecələyir, obaşdan durub şehli otlar üstündə ayaqyalın gəzməyi xoşlayırdı. Qubada ləngiməyinin başlıca səbəbi də ailəsini şimalın sərt havasından Bakının bürkülərinə birdən-birə atmamaq, bu yerlərə tədricən uyğunlaşdırmaq idi.

– Maşını hara sürüm?

– Bizi qovan var, hara tələsirsən? İki gündü yollardayıq. Bir sərin yerdə nəfəsimizi dərək də. Ə, Sədrəddin, – deyə çiyninin üstündən geri qanrılanda baxışlarımız kəsişdi. – Bu tərəflərə sən daha yaxşı bələdsən, bir az harda dincələk yaxşı-yaxşı? – deyə İlyas müəllim əllərini bir-birinə çırpıb dodaqlarını islatdı. – Heyif deyil öz xörəklərimiz, makaron, borş, kotlet bezdirdi bizi. Hara sürsün Timuçin?

Başıma qaynar qazan boşaltdılar elə bil. Anam ağır xəstə, qardaşımı da yaxşı gəlirli işdən uzaqlaşdırıblar. Evimizdə üz ağarda bilməyəcəkdim.

Ancaq Əlməmmədin «Yol ayrıcı» restoranında çöl ördəyi ləvəngisi, asetirin kababı – bir sözlə, can dərmanı desən var. Mütəkkələrə söykənib mürgüləmək də olar. Ya da «Yuxarı park» restoranında stol açsınlar. Klarnetçi Şirzadın ansamblı istədiyin musiqini çalsın, puluna minnət. Amma o pul anası ölmüş də çıxıb ceyran belinə.

Neyləyim? Necə çıxım bu yükün altından? İlyas müəllimin – «Bu yerlərə sən yaxşı bələdsən» deməsi də o deməkdi ki, yəni gəl, qabağa düş. «Bir az yaxşı-yaxşı dincələk» deməsi də çay qırağında elə-belə oturub ayaqları suya sallamaq deyil. Quzu kababı şişlərdə tüstülənə-tüstülənə gələ gərək. Çolpa soyutması, dana buğlaması, üzlü qatıqla göy qutabı! Ancaq bunları da lopuğa vermirlər. Pis yerdə günüm axşam oldu.

Mən İlyas müəllimin qulluğunda gözümü qırpmadan günlər nədi, həftələrlə durmağa hazır idim. Ona görə yox ki, kitablarımı plana saldırsın, Moskva qurultayına nümayəndə seçdirsin. Ona görə ki, o sözübütöv, haqqın tərəfində duran, bununçun canından keçməyə hazır bir adamdı. SSRİ Yazıçılar İttifaqından çox dəyərli bir məktub almışdıq. Moskva bir neçə yazıçımızı Almaniyaya yaradıcılıq ezamiyyətinə göndərmək istəyirdi. Təklif bizim Prezidium iclasına çıxarıldı. Və bundan

sonra da həngamələr başladı. Oturuşmuş, yaxşı təmin olunmuş, orden-medallı yazıçılar arasında «sən getmə, mən gedim» davası düşdü. Mən İlyas müəllimin diplomatiyasına heyran oldum. O, birinin əlindən tutur, birinin boynunu qucaqlayır, hamıya mehriban nəzərlərlə baxaraq: – Ay yoldaşlar, bəlkə, ezamiyyətə bir-iki gənc yazar göndərək?! – dedi. – Öz balalarımız, gələcəyimizdilər. Modernizm, ekssentrizm və bir çox başqa ədəbi cərəyanlarla qaynayır bugünkü Avropa. Gənclik yeniliyi daha tez götürür. Onlar özlərindən nəsə təzə bir şey artıra da bilərlər bugünkü inkişafa. Nəticədə ədəbiyyat zənginləşər, oxucu qazanar. Gəlin gənc, özü də fəal yazıçılardan göndərək, – dedi. Təklif qəbul olundu. Ancaq elə bircə bu gözütoxluğuna görə İlyas müəllimə ürəyimin yağını yedirməyə hazır idim. Qəçrəş bulağının ən yaraşıqlı köşkündə yeri görünürdü İlyas müəllimin. Bəs ora da necə aparım qonaqları?

Bulağın müdiri Babayla uşaq bağçasına bir yerdə getmiş, məktəbdə də bir parta arxasında oturmuşduq. Sonralar Qubanın keçmiş birinci katibiylə buralara yolumuz düşəndə yüyürüb qabağımıza gələr, «Hə, bu Sədrəddin uşaqlıq dostumdu» – deyə yalmanar, özünə xal qazandırıb, yerini isti eləməyə çalışardı.

Axı indi nə olub ki, batmışam qəm dəryasına?! Pulun atasını yandıran araq-çaxırdı. İlyas müəllim də içki içməyib ömründə. Mən də canımı dişimə tutub dözəm. İçmərəm. Bu dəyirman daşını boynumdan ata bilərəm, bəlkə?! – deyə düşünür, özümü gərginlikdən qurtarmağa çalışırdım. Babanı kənara çəkib deyərəm, – qardaş, namusa boğulmuşam. Qonağım hörmətli yazıçıdı. Mənə atalıq eləyib. Sən Allah, yola ver bizi. Çox əl-qol açıb doldurma süfrəni. Bizə yüngül bir qəlyanaltı ver. Təzə şeirlərimin qonorarı yoldadı. Haqqını bir-iki günə gətirib çatdıraram, – desəm inanar, eşidər uşaqlıq dostum. Məni darda qoymaz.

– Ay Timuçin! Bakı nədi, sovxoz nədi? Bu istidə camaat canını alıb çölə, meşəyə qaçır. Əşşi, sür Qəçrəş bulağına. Beşgünlük dünyada biz də bir gün insan kimi yaşayaq da, – dedim.

Timuçin dinmədi.

– Hə, Qəçrəş bulağı, – deyə bir an fikrə getdi İlyas müəllim. Sonra da – gələn-gedəni, qonaq-qarası çox olur o bulağın yenə? – soruşdu.

– Köşklərdə yer tapılmır! Daşların, qayaların üstündə süfrə açırlar. Bəziləri bufetin, kababçıların böyründə ayaqüstü yeyib-içirlər. Hamı doğmalaşır burda. Tanıyan, tanımayan bir-birini qonaq eləyir.

– Əhə, əhə, – astaca öskürüb, başını razılıqla tərpətdi İlyas müəllim. – Eh, varam belə elliyə, birliyə də. Camaata qaynayıb qarışanda ürəyim açılır. Xalqa nə qədər gərəkli olduğumu görürəm – deyib Timuçini yüngülcə dümsüklədi. Maşın götürüldü. – Hə, eşitdin, nooldu birdən sənə? Şəhər içində qovma maşını. Hə, bax belə, bir az yavaş sür. O qabaqdakı tindən sağa burulub, doğum evinin yanından başı yuxarı gedərsən.

Maşın «Qəçrəş» bulağına tərəf istiqamət götürdü. Uzaqda ortası yəhər kimi çökək, yanlarda iki qaşı ağaran Şahdağ görünürdü. Asfalt yolun sağında və solundakı çinarlar gəmi göyərtəsində cərgəyə düzülmüş ağ-yaşıl köynəkli matrosları xatırladırdı. Get-gedə çinarlar seyrəkləşdi. Yolətrafı xəndək kənarlarında qaratikan, böyürtkən kolları sıxlaşıb keçilməz oldu. Meşəyə girdik. İri gövdəli palıd, qovaq ağaclarının enliyarpaqlı budaqları üst-üstə təpilir, günəşin şəfəqləri bu təbii talvarın üstündə əriyib itir, meşə qaranlıqlaşırdı. Palıd qozaları təkərlərin altında tir tüfənginin pistonları kimi şaqqıldayırdı. Az sonra açıqlığa çıxdıq. Ot dizdən yuxarı, baldırğanlar adam boyu. Talanın qurtaran yerində baş-başa verən ağacların arasındakı boşluq mağara ağzı kimi qaralırdı. Bu, yaşıl bir tunelin girəcəyi idi.

Get-gedə hündürləşən Şahdağın əzmi, əzəməti ürək genişləndirirdi. Hava sərinləşir, canımıza şirin vicvicə salırdı. Açıq pəncərədən salona dolan otun-çayırın qoxusu, cırcıramanı qovan sığırçının bağırtıları bu yollarda keçən uşaqlığımı yadıma salırdı. Elə bu Qəçrəş meşələrində ləpirlərə yığılan sulardan içib, loluxlamış əzgillə, yemişanla, fındıqla qarnımı doydurub, ancaq quru şax-şulaxla burazladığım arabamı oxuya-oxuya, oynaya-oynaya şəhər bazarına gətirirdim. Məni yedirtdi, geyindirdi, məşəqqətlərdə sınmamağı öyrətdi, mənə şeirlər yazdırdı bu meşələr.

*Eh, məktəb yolları,*
*Eh, meşə yolları.*
*Nədənsə qarışıq salardım*
*Həmişə yolları.*
*Səhər dərsə…*
*Sonra meşəyə…*
*Çəkərdim odun dolu arabamı*
*Təntiyə-təntiyə, tövşüyə-tövşüyə…*
*Nə könlün başqa bir istəyi vardı,*
*Nə qəlbin diləyi.*
*Sanardım hər yerdə gözəldir,*
*Alıc meşəsi, Oruc güneyi.*
*Xəlbirimiz mıxçalarda*
*asılı qaldı,*
*Ələyimiz hisli qaldı,*
*paslı qaldı,*
*Qazanlar ağappaq,*
*boşqablar tərtəmiz idi,*
*Bu ağlıq, bu təmizlik*
*ən böyük dərdimiz idi!*

Yumşaq, hamar meşə yolunda maşın sakit, səssiz gedirdi. Sağ tərəfdə dəmir lövhədə nida işarəsinin «aşağı sürət» əmrini görən Timuçin ayağını əyləcə qoydu. Maşın silkələndi. İlyas müəllim:

– Nooldu, niyə yavaşıtdın?

– Ata, ora bax!

Qabaqda burnu baltalı traktorlar qayaları çapır, sarı candonlu fəhlələr külünglərlə, lomlarla xəndəklər, çalalar qazırdılar. Sağ tərəfdəki ekskavatorçu iridişli çömçəsini zərblə yerə çırpır, qaldırdığı daş-torpağı böyründəki maşının banına boşaldanda yarısı yerə tökülür, toz dumana qarışırdı.

İlyas müəllim qurcalanıb qapını açmaq istədi. Timuçin:

– Ata, neynirsən? Hara düşürsən? – deyə İlyas müəllimin əlini geri çəkdi. – Düşmə, tez çıxaq aradan. O Sərsəng səfərimiz yuxuma girir tez-tez. Getsin, gəlməsin bir də o günlər. Evə qayıdandan sonra düz bir ay yuyunduq.

– Heylə qeyzli danışma. Bəs gecə-gündüz o toz-torpaqda işləyənlər neyləsin? Ailə saxlayır, uşaq oxudur, cəmiyyətin sabahına işıq olur əməlləri. Oğlum, Sərsəngin toz-torpağı canıma hopdu, qanımda çağladı. Bir gün də bu toz-torpaq qızıl külçələri kimi töküldü varaqlara. Mən «Körpüsalanlar» romanımı yazdım. O toz-torpaq qəhrəmanlarından gələn məktublar həyəcan təbillərimin əks-sədasıdı. Saxla maşını! Qoy düşüm aşağı. Bax, o buldozerin vurnuxduğu çökəkliyə bax. Onun böyründən suyu şırhaşırla axan qədim bir arx olmalıdı. Hə, Şıxməmməd arxı. Şeyx Məmməd adlı bir xeyriyyəçi çəkdirib onu. Buldozerçi fikir verməz. Vurar, dağıdar birdən!

Biz maşından düşdük. Meşədən təngnəfəs çıxan üzü təmiz qırxılı, qırmızısifət oğlan bizə çataçatda:

– Götürün maşını burdan! O ekskavatorçu Staxanovçulardandı. Bir gündə üç plan doldurur. Qızışanda yan-yörəsinə baxmır, çömçəsini hara gəldi boşaldır. Maşını zədələyə bilər! – Təlaşının, həyəcanının heç bir reaksiya doğurmadığını görən

iş icraçısı İlyas müəllimdən soruşdu: – Üzr istəyirəm, siz kimsiniz? Mənə çox tanış gəlirsiniz. Harda görmüşəm sizi? – deyib eynəyini çıxararaq, sətin pencəyinin yaxasına sürtüb təzədən gözünə taxdı:

– Hə, deyəsən, Qalaxudat kəndində. Biz orda ferma kompleksi tikirdik. Sovxoz rəhbərləri sizinlə görüş keçirməyi planlaşdırmışdılar. Hə, yadıma düşdü. Yazıçısınız! Bəli, İlyas müəllim, o ekskavatorçu Staxanovçulardandı. Beş-on adamın işini görür. Bir az tərif xoşlayandı. Haqqında bir şey yazılsa, əmək tempini bir az da artırar. Amma xahiş edirəm, maşını buradan götürün. Onu bax o meşəyə salın, – deyərək əlini dəvə beli kimi donqar təpəyə tərəf uzatdı. Mən uşaqlara tapşıraram. Orda bir neçə ağac kəsib sizə yol açsınlar.

«Necə, ağacları kəsib yol açacaqlar?» – bir anlıq fikrə getdim. Bu həmin meşədir ki, bir ayaqüstü ağac, bir yaş budağı kəsənin atasını yandırıb, iplərini doğradıb, dəhrəsini müsadirə edib meşəbəyi Bəxtiyar. Lap haqq da eləyib! Ağac da, çay da, quş da, insan da ona verilən ömür payını arxayınca, sona qədər yaşamalıdı.

İş icraçısı geri çevrilib: – Ə, briqadir Mamedov, – bağırdı. Elə ağzımı açmaq istəyirdim ki, Timuçin ona yaxınlaşaraq:

– A yoldaş, heç nə lazım deyil! – dedi. – Ağacları kəsdirməyə ehtiyac yoxdur. Onsuz da seyrəkdir meşə. Lazım gəlsə özüm yol tapıb çıxaram bir yana.

İlyas müəllimin ekskavatorun işlədiyi meydançaya tərəf getdiyini görən iş icraçısı qoltuq cibindən əl telefonunu çıxarıb tez-təcili nömrə yığmağa başladı. «Staxanovçu» başını pəncərədən çıxartdı. Ekskavatorun uğultusu xırp kəsildi.

İlyas müəllim:

– Odu bax, – deyə başını narazılıqla bulayıb yolun sağ tərəfinə adladı. – Bəs belə məsuliyyətsizlik olar? – iş icraçısına ciddi nəzərlərlə baxdı İlyas müəllim. – Ekskavatorçu deyək ki, əmr quludu, başı işə qarışıqdı, sən deyən kimi beş-on adamın

işini görür. Amma siz oxumuş, savadlı mütəxəssissiz. Gördüyünüz iş, ərsəyə gətirdiyiniz tikinti sizə başucalığı, şərəf-şan gətirməlidi. Buna görə də obyektinizin ətrafında nə var, nə yoxu götür-qoy edib, tikinti meydanının imkanlarını hərtərəfli öyrənməlisiniz.

– Noolub ki, İlyas müəllim? Burdan kabel keçmir, kanalizasiya xətləri yoxdur. Tikinti planla gedir.

– Bəs bu arxın qabağını niyə boğmusunuz? Su yığılar, partlayar, darmadağın olar bu qədim arx. Buna tarixi abidə də deyə bilərəm mən.

– Hanı burda bir tikili heykəl-abidə? Bəs burda bir pir, bir övliya ocağı, abidə olsa mən görmərəm?! – İlyas müəllimin əsəbi baxışlarını görüb səsini qısdı. – İlyas müəllim, siz nədən narazısız?

– Bura gəl, – o, iş icraçısının qolundan tutdu. Onlar arx boyu enişə getdilər. İlyas müəllim qaratikan kolluqlarının yanında ayaq saxladı. – Mən bu arxı deyirəm. İlk baxışda hərəkətsiz kimi görünür. Ancaq diqqətlə baxsan, lal-dinməz axdığını görərsən.

– Bu, möcüzədi. Gözümə inana bilmirəm. Arxın suyu üzüyuxarı çıxır?

– Bəli, unikal, dəqiq hesablamalarla çəkilib bu arx. Su öz gücü hesabına dərədəki çaydan Qubanın dağətəyi «Dəvədabanı» massivinə qalxır.

– Belə çıxır ki, o şeyx «Dəvədabanı»nda məskən salıb. Öz ev-eşiyinə su çəkdirib Qudyalçaydan? – soruşdu iş icraçısı.

– Yox, Şıxməmməd kişi başqa bir kənddə yaşayıb. Orada indikilərin diliylə desək, yaxşı villası, çeşməli, sulu bağ-bağçası olub.

– Bəs «Dəvədabanı»ya niyə çəkdirib axı bu arxı?

– Bəli, böyüklük, alicənablıq hissləri insanları fədakarlığa ruhlandırır. «Dəvədabanı» dəmyə, quraq bir yerdi. Orda yaşayan kasıb camaat su sarıdan korluq çəkib. Göyərtiyə, mey-

vəyə tamarzı qalıblar. Əkib-becərə bilməyiblər. Şıxməmməd kişinin çəkdirdiyi arx suları oranın quru torpaqlarına can verib. Bağlar salınıb, tərəvəzlər, bostanlar əkilib. Başıuca, qürurla yaşamağı xoşlayır türk olan hər kəs. Ona görə də döyüşdə basılmaz olurlar, sözdə bütöv. Əl tutmağı Həzrət Əlidən öyrəniblər. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev və bir para başqaları da göydəndüşmə deyillər bu millətin həyatında. Xalqa iş yeri açıb, məktəb, mədəniyyət veriblər. Bəli, o uzaqgörən, xeyirxah kişilər öz babaları Şıxməmmədin tökdüklərini yığayığa gələnlərdəndi. Təkcə Zeynalabdin Tağıyev neçə milyonlar qoyub Şollar suyunu Bakıya gətirib.

İş icraçısı qulağının ardını qaşıya-qaşıya gileylənirdi:

– Hanı bizdə o imkan? Xırda-mırda işlər görürəm mən. İki dərənin üstünə bir körpü qoyacam. Plan veriblər, mən də yerinə yetirməliyəm. Buna görə mənə heç bir «sağ ol» da deyən olmayacaq. Hanı bizdə o bəxt?!

– Adın nədi, oğlum? – deyə iş icraçısının əlindən tutdu İlyas müəllim.

– Bənna Həşimin nəvəsiyəm. Adım Zülfüqardı.

İlyas müəllim mənə tərəf çevrildi:

– Sədrəddin, burda gördüyümüz zəhmət adamlarının işindən, həyatından canlı bir oçerk yaza bilərsən. Birləşdirən, qovuşduran körpülər şairlərin romantik uçuşlarına qol-qanad verər. «Azərbaycan gəncləri» qəzeti üçün çox zəngin material var burda. Dərələr, çaylar üstündə salınan körpülər ölkələri, xalqları, mədəniyyətləri birləşdirir. Dünyamız sabahlara, insanlıq qardaşlığa gedir körpülərdən keçir. «Zülfüqar körpüsü» ola bilər qəzetə göndərəcəyin reportajın adı.

Arifə bir işarə bəs edər. Mən də fil qulağında yatanlardan deyildim. Anlayır, yaxşı başa düşürdüm ki, İlyas müəllim bu oçerk söhbəti ilə məni təzədən ədəbi aləmə qovuşdurmaq istəyir. Tək-tək qığılcımları görünən ocağın külünü eşələyib, üfürüb alovlandırmağa çalışırdı.

Zülfüqar başını yavaş-yavaş qaldırdı. Sac kimi qızaran sifətini yana tutdu:

– Üzr istəyirəm, mən gedim. Briqadaları tənəffüsə buraxmalıyam, – deyib uzaqlaşdı.

Araya ağır sükut çökmüşdü. Amma mən hər qarışına yaxşı bələd olduğum bu meşədə yarpaqların pıçıltısını, cücülərin, həşəratların xışıltısını da eşidirdim. Bu nə şaqqıltıdı bəs? Meşədə qılınc oynadırdılar sanki. Baltalar ağaclara çırpılır, şaqqıltılar qopur, sanki pulemyot atəşləri açılırdı. İçi boş gövdəyə çırpılan baltanın səsi gurultulu nağara səsiydi. Quru gövdəyə vurulan balta ağacı çəkic altındakı mis kimi zarıdır, zingildədir, amma iti baltalar «hav, hav»la ağacları it kimi qapırdılar. Baltaçıların ürəyi daşdan deyildi. Tapılmayan çörək, övladların paltar, dəftər-kitab ehtiyacı onların duyğularını korşaltmışdı. Baltaçılar bu fəryadları eşitməməzliyə vururdular. Neyləsinlər bəs? Vicdan, namus, qeyrət hissi insanı cana doydurur, amma qarın doyurmur. Ac qılınca çapar.

– Ay İlyas müəllim, dünyanın bir çox ölkələrində olmuşam. Ac, yoxsul gördüm insanların əksəriyyətini. Mozambikdə, Tanzaniyada uşaqlar xəstə doğulurlar. Niyə insan insan kimi yaşamasın? BMT dünyada firavanlıq yaratmaqdan dəm vurur.

Danışırlar, quru vədlər verirlər. Amma dünyada hər gün üç yüz min nəfər aclıqdan ölür. Allah-taala ulduzlu göyləri, ceyranlı çəmənləri, yağışı, küləyi, turş narı, şirin üzümü yerə göndərib ki, insanlar sağlam, gümrah yaşasın. Bir yapon yazıçısı «Mən insanları sevmirəm» deyir. O yazıçı cəmiyyəti saflaşdırmağa çalışmır. Mübarizədən qaçır. Bu onun bədbəxtliyidi. Amma bir çox hallarda bizdə də insan aliliyi gözlənilmir.

– Yaxşı, müddəalarınla ümumi şəkildə razılaşıram. Amma bir az aydın, konkret danış!

– Baş üstə! Dəfələrlə başıma gəlib. Çoxdan görmək istədiyim bir tamaşaya bilet alıb teatra gəlmişəm. Ancaq qapılar

bağlıdı. Məlum olur ki, tamaşaya bilet az satılıb. Əsər oynanılmayacaq. Bəs o əsəri görməyə günlərlə hazırlaşan, qonşusundan «prokat»a paltar, daş-qaş götürən xanımlar, saç düzümünü, manikürünü təzələyən gəlinlər niyə tamaşaya baxmasınlar? O «azlar» insan deyillər?

İlyas müəllim:

– Əhə, əhə – bir-iki ağız bərkdən öskürdü. Havası çatmadı elə bil. Köynəyinin yaxasını açıb əlini sinəsində gəzdirdi. – Sən mənim yaralı yerimə toxundun. Bu, naqislikdi, tamaşaçıya hörmətsizlikdi. Müqəddəs bir ocaqda çılpaq tərbiyəsizlik, xuliqanlıqdı. Bu barədə Mədəniyyət Nazirliyinin kollegiya iclasında ciddi söhbətlər olub. Mən demişəm – əgər zalda bir tamaşaçı varsa, əsər oynanılmalıdı.

– Bəs ay pirim, ay övliyam, deyirlər, yüz dəfə imam üçün ağlayan bir dəfə də yezidçin ağlasın gərək. Bəs öz aramızdı, de, bir bilet satmaqla teatr özünü necə dolandırsın? Yaradıcı heyətin maaşları necə verilsin, kommunal xərclər necə ödənilsin?

– Sədrəddin, sən hədəfdə onluğu vurdun yenə. Teatrın «qazanmaq», «başını saxlamaq» problemi məni çox düşündürüb. Ha çalışsam da, həllini tapa bilmirəm. Daha doğrusu, gücüm çatmayıb bu daşı qaldırmağa. «Sən həmişə mənimləsən» pyesim uğurla oynanılırdı. Mən də Mərkəzi Komitənin birinci katibi, söz sərrafı, ədəbiyyatın qayğıkeşi Heydər Əliyev yoldaşı əsərə baxmağa dəvət etdim. Tamaşa xoşuna gəlmişdi. Sonra bizi başına topladı. Aparıcı aktyorların işini təriflədi. Rejissor tapıntılarından danışdı. Söhbət zamanı Cəfər Cabbarlı dramaturgiyasının Azərbaycan ədəbiyyatında mühüm bir mərhələ olduğunu söylədi. Bir kənarda durub qulaq asırdım. Yaxınlaşıb əlimi sıxdı. Mən də təşəkkür edib teatrın «qazanmaq», «başını saxlamaq» məsələsinə toxundum. Diqqətlə qulaq asdı. Sözümü kəsmədi. Sonra da gülə-gülə: – İlyas müəllim, çox həyəcanlı, həm də gur səslə danışırsınız. Bəzi nazir-

lərimiz eşidib, yəqin ki, bir təklif hazırlayarlar! Teatrı yaşatmaq dövlətin işidir, – dedi. – Bəli, ədəbiyyatın, incəsənətin vəzifəsi insanlarda yüksək insani keyfiyyətlər aşılamaqdı. Sizin bir tamaşaçı üçün böyük bir əsəri oynamaq təklifinizə mən əllərimin ikisini də qaldırıram. Belə bir addım kollektivə başıucalıq gətirər. Tamaşaya tək baxan o tamaşaçı, bəlkə, hansı bir epizoddansa səmərəli nəticə çıxarıb ətəyindəki şər daşlarını yerə tökər! Bəlkə, evində, ya iş yerində onu sarsıdan bir suala cavab tapmaq üçün gəlir o gələn?! O bir nəfər tamaşaya gündə iki dəfə gəlmiş olsa, truppa əsəri iki dəfə oynamalıdı. Biz insan amilini ön plana çəkməliyik, – dedi Heydər Əliyev və söhbəti yekunlaşdırdı. Eh, – dərin bir köks ötürüb sözünü davam etdirdi İlyas müəllim. – Əzizim, Sədrəddin, bitib-tükənməz qayğılarıyla çətin sənətdi sənətimiz. Bir an əvvəl hamısını yazdım – deyib nöqtəni qoymusansa, bir an sonra heç nə yazmamış kimi təzədən qələmlə qol-boyun olursan. Milli dram teatrında əsərlərim oynanılır, xarici ölkələrdən teleqramlar, zənglər gəlir ünvanıma. «Geriyə baxma, qoca» romanım qardaş xalqların dillərinə çevrilib. Povest və hekayələrim əl-əl gəzir, oxucu məktublarının ardı-arası kəsilmir. Ancaq noolsun? Kürdəmir cəhənnəminin pambıq tarlasında qaxaca dönən bir qız uşağını ev-eşik yiyəsi eləyə bilsəydim özümü xoşbəxt sanardım. Ay Sədrəddin, bəlkə, sənət seçməkdə yanılmışam? Sən necə baxırsan bu məsələyə?

– Elə deməyin, sizin o «Unuda bilmirəm» pyesinizdəki Nərminə bənzəyir indiki bütün qızlarımız. Amalya xanımın ifasında Nərmin sevilən, unudulmaz obrazdır.

– Çox sağ ol. Əlbəttə, ürəkaçan xəbərdir. Ancaq bu, azdı. Hər bir əsər müəllifin ürək harayı, həyəcan təbilidir. Fırlanan ərşin çarxını zəncirləmək istəyənlər var! İstərdim ki, əsərlərim bu maneələri qıran, parçalayan xəncər olsun. Yüksəliş yolun-

da qabağa qayalar, daşlar çıxır. Məhəbbətin sehrindən dəliləşib, çöllərdə Leylisini axtaran Məcnuna vüsal sorağı versin. Əsərlərim qohumbaza, yerlipərəstə, rüşvətxora yol yoldaşı olmaq istəməyən bir yazıçının ürək çırpıntıları, həyəcan təbilləridir.

– Demək, təbillər daha gur səslənəcək, – dedim və məni narahat edən bir məsələyə toxundum. – Əlbəttə, biz çalışmalıyıq. Amma tək burda yox, indi Avropada da oxucu kitabdan küsüb – dedim. Xəbər İlyas müəllimi qıcıqlandırar düşünsəm də o, təmkinlə:

– Bu, müvəqqəti bir haldır. Bir çox ölkələr qlobal iqtisadi böhranla əlbəyaxadadı. «Ehtiyac qapıdan girəndə məhəbbət bacadan çıxar» deyir Şekspir. Ancaq oxucuları mütaliəyə yazıçılar gətirməlidir. Sən özün də bu sahədə az iş görməmisən. «Cənnətin bağlı yolları» poemasını oxuyanlar mətbuat səhifələrində məqalələr çap etdirir, bu yolların nə zaman açılacağını soruşurlar – dedi.

İlyas müəllim susdu. Araya sakitlik çökdü. Sonra da qulağı ağır eşidənə deyirmiş kimi ucadan – Dayanma! Süstlük, durğunluq çürümə deməkdir– dedi.– Amma qoymaram. Yadındadımı Masallıya getmişdik. Orda Üzeyir həkimin əlli illiyində «Qədəhim qırıldı» adlı bir şeir oxudun.

– Bəli, o, Türk poeziyasının ən gözəl nümunələrindən biridir:

*Kimi qəmdən içər, kimi nəşədən,*
*Kimi yar əlindən, kimi şüşədən,*
*Kimi ayrılıqdan, kimi işvədən.*
*Qədəhim qırılmış, badəm artıq boş,*
*Sormayın mən niyə sərxoşam, sərxoş…*

– Bəsdi, dayan, – dedi İlyas müəllim, sonra – əhə, əhə – iki ağız öskürdü. Bu balaca şeir içki aludəçisi haqqında elegiyadır. Sədrəddin, bax o şeirdəki qədəhin qırılmağı nə deməkdir? Nəyə işarədi?

– Qırılmaq bütövün məhvidir. Qırılan qatarda yüksüz vaqondur. Arabada beşinci təkərdi.

– Çox dəqiq xırdaladın. Amma, əzizim, gərək bunu da biləsən ki, şairlərin ilham pərisi qısqanclıqda Şekspirin Otellosunu kölgədə qoyar. Xəyanəti bağışlamır o pəri. Ancaq o pəri başqa birini yox, onu sevən aşiqi öz qanadlarında göyün yeddi qatına qaldırır. Amma səni İblis başdan çıxarıb, onun toruna düşmüsən. İfritəyə könül verib ilham pərisini özündən küsdürmüsən. Yazıçı sənət yolundan sapanda relsdən çıxmış qatar kimi parça-parça olur. O, fildi, qarışqa yerişi yerisə qıçları qırılar.

Məni soyuq tər basır, dodaqlarım kərpic-kərpic kəsilir, hülqumumdakı yapışqan udlağımı qıcıqlandırırdı. Öskürək məni boğsa da, cınqırımı çıxara bilməzdim. İlyas müəllim:

– Ay Timuçin, toz bizi boğdu, bardoçokda boğaz islatmağa bir şey var? – soruşdu.

Timuçin başını arxaya döndərib mənə baxdı və göz vurdu. «Bic-bic gülməklə nə demək istədi? Ölsəm bundan yaxşıdı».

– Yox, ata, heç nə yoxdu. Amma qabaqda maqazin var, lazımdısa düşüm bir butulka götürüm, – deyib üzümə irişdi. Özümü saxlaya bilmədim:

– Bura bax! Mənə heç nə lazım deyil, – dedim.

– Mən sərin bir «Badamlı» nəzərdə tutmuşdum, – deyə mızıldandı Timuçin. «Sədrəddin, öl, sənə bu da azdı. Səni sınağa çəkirlər. Dözməlisən. Polad döyüldükcə bərkiyir». Arkadi Ostrovskinin «Polad necə bərkidi» əsərini nahaq yerə oxumamışam ki»...

İlyas müəllim bardoçokdan çıxardığı mandarinlərdən birini mənə verdi. Nədi, yetimin başına qapaz vurub əlinə qoğal verirlər? Könlümü alır, yəqin. Ancaq bu məzəmmətləri qatır nədi, heç fil də çəkə bilməzdi. Eyibimə kor olub susurdum. «Yoxuş başı»nda sifətimdə duyduğum o göynərtinin şirinliyi burda da təkrar olundu. İlyas müəllimin bir tamaşaçı üçün bütöv bir əsəri oynatmaq arzusu da, xoşbəxtliyini yaradıcılığında yox, yaşı ötməkdə olan bir qızı ərə verməkdə görməsi də, qədəhimin qırılmasıyla heç cür barışmaması da, Maksim Qorkinin təbirincə, «Adı qürurla səslənən insan»a hörmət və inamdan irəli gəlirdi. İçim od tutub yanırdı. Yaşıl tunelə girən kimi oranın soyuq havasını əynimə köynək kimi geyəcəkdim. Nəmişliyin səmadan tökülən sərin, zərif telləri sifətimə, əllərimə çökmüş yanğıları söndürəcəkdi.

Timuçin maşını restoranın həyətinə saldı. Biz maşından düşdük. Timuçin kapotu qaldırdı. Mühərrikin yan-yörəsində qurdalanmağa başladı. Mən İlyas müəllimi əl-üz yuyana tərəf apardım. İndi dostum Baba gül-gülə qabağıma yüyürüb boynuma sarmaşaraq: – «Əşşi, gəl çıx da, ay şair! Ayağında bərəkət var. Sən gələndə vallah bu meşələrin yarpağı da pula çevrilir» – deyə qabağa düşəcək, köşklərin ən yaxşısında bizə yer göstərəcək.

Bulaq çökəkdəydi. Soyuq hava uzaqdan vururdu. Havanı ciyər dolusu içimə çəkdim. İşgüzar adamdı Baba. Hələ uşaqlıqdan kövrək ürəyi vardı. Yol kənarlarındakı güldanlar yenicə sulanmışdı. Həmişə boynubükük nərgizlər indi başlarını qaldırmış, mərcimək gözlərini qonşu ləklərdən çəkmir, özlərinə sirdaş axtarırdılar. Zambaq əyri yarpağını lalənin nəlbəki ləçəyinə sürtəndə eşitdiyim kövrək sədalar Fikrət Əmirovun «Kürd ovşarı» simfonik muğamının son ahənglərini yadıma salırdı.

Aha, bu da Baba! Amma hanı bəs həmişə məni görəndə qulaqlarına çatan ağzı? Gülməkdən çəpləşən gözləri hanı bəs?

Məni qucaqlayıb sinəsinə sıxan uzun, quru qolları hanı bəs? Baba candərdi, istəməyə-istəməyə mənə yaxınlaşdı. Şişmiş sifətimi, loluxlamış gözlərimi görcək kal gavalı dişlədi elə bil. Dodaqları büzüşdü. Qalın, cod qaşları baş-başa gəldi.

– Eh, lentin qırılıb, ay şair, – dedi. – Hə, lentin qırılıb – deyə bozardı.

Məni cərəyan vurdu sanki:

– Lentim qırılıb nədi? Nə demək istəyirsən?

– Əşşi, nə bilim. Zər gətirməyəndə, aşıq bəd gələndə belə deyirlər. Lentin qırılıb da sənin də.

Əl-ayağım soyudu:

– Yox, hələ heç nə qırılmayıb. Qoymaram da qırıla. İlyas müəllimnən gəlmişik yanına. İçən deyil. Elə mən də «suxoy zakon»a keçmək istəyirəm. Görək nə olar! O kişi ömründə içki içməyib. Oğlunun da yanında rumka götürməz. Ağır xərcə salmaram səni. Bizi yola ver, sən Allah!

– Yazıçı İlyas Əfəndiyevi deyirsən?

– Hə! Çox böyük yazıçıdı.

Baba fikrə getdi bir an. Əlini seyrək saqqalından ötürüb üzümə baxa-baxa durdu. Sonra da bic-bic gülümsədi:

– İlyas müəllim buranın sevilən müştərisidi. Ona mənim canım da qurbandı. Amma sən düz yolda deyilsən. Lentini qırmısan. Bura Yazıçılar İttifaqını yığsan da xeyri yoxdu!

Cibimdən Yazıçılar İttifaqının biletini çıxarıb az qala gözünə soxdum:

– Bunu girov götür.

Baba sənədi o üz-bu üzünə çevirib çənəsinin altında yelpic kimi yellədi:

– Bir azdan dövlət bankının inkassatorları əzrail kimi kəsdirəcək başımın üstünü. Vıruçka istəyəcəklər. Pulun yerinə bu knişkəni verim onlara?

– Dayan! Səbrin olsun. Altıaylıq döyülsən. Gör nə deyirəm. Bax, Rostovda çıxan «Don» jurnalında şeirlərim çap olunub. Bu da onun pul kağızı, – deyə poçt qəbzini ona göstərdim. – Bu gün poçt işləmədi. İstirahət günüdü. Sabah tezdən çatdıraram haqqını da.

– Yox, bu Baba ölsün, yox, – deyə üzünü astaca şapalaqladı. – Qardaş canı, yeri yoxdu. Bax, o birinci besetkada barmağını silkələyə-silkələyə danışan var ha, Xaçmazın baş prokurorudu. Müştəri heylə olar! Hələ nə araq var ortada, nə kabab. Pulu paçkaynan tökdü qabağıma. Restorana belə gələrlər. Yoxsa sənin kimi cibi boş! Adın-sanın vardı. Pulunu balta kəsmirdi. Mən də fərəhlənirdim. Qonşuda bişirdi, bizə də düşürdü. Sənə dərs olmur ki?

– Haqlısan məni danlamaqda. Ancaq vəziyyət çox gərgindi. Heyif! Belə yerdə deyirlər ki, toxun acdan, qurunun yaşdan xəbəri olmaz, – dedim. Sənə güvənib gətirmişəm qonağımı bura! İndi bəs neyləyim, necə çıxım bu yükün altından?!

– Dayan görək, sən quru, yaş dedin. Şair, kasıbın heç nəyi olmasa da, Allahı var, – deyəndə dodaqları qaçdı. – «İkinci aylama»da quru, çıxdaş ağaclardan zaqatovka başlanıb. Motor mişarıynan, nacağnan, dəhrəynən necə gəldi qırıllar ağacları, maşınlarnan daşıyırlar. Bəs eşitmirsən meşədəki şaqqa-şaqı? Ağac kəsənlər yaxşı pul qırırlar orda. Sən köhnə şələçisən. Təcrübən var ağac kəsməkdə. Palıdı yıxıb girdimləmək əlində su içmək kimi bir şeydi.

– Kim verir icazəni?

– Meşəbəyi Bəxtiyar dayı.

– Məni tanıyarmı, görəsən?

– Eh, heç tanımasın! Keçəl halva yeyər, puluna minnət! Hə, «ikinci aylama»ya ver özünü. Kəsilməli ağacları göstərəcək. Sən də baltalayıb yıxacaqsan yerə. Qırıntısıynan işin olmasın. Gövdəsini də girdim-girdim doğrayıb yığacaqsan

xaraya. Bəxtiyar dayı da doğradıqlarını kuba vurub zəhmət haqqını yerində ödəyəcək!

– Bəs balta, yekə, dəmir paz lazımdır axı?

– Özü verəcək. Dayan, əl əli yuyar, əl də üzü – deyib iti addımlarla talvar altında tüstülənən manqallara tərəf getdi. Qaranlıqda işartı görmüşdüm. Eynim açılırdı.

«Hə, balta iti olanda ağac tez, həm də asanlıqla kəsilir. Sonra girdimləyib xaraya vurmağa nə var ki? İlyas müəllim mehmanxanada bir göz yuxu alınca qayıdar, yemək-içməkləri gen-bol sifariş verərəm», – düşünür, açılışırdım. «Amma «ikinci aylama»ya xeyli yol var. Piyada getsəm bir saata ancaq çataram. Dayan, piyada niyə? Timuçinin maşınına nə gəlib» – deyə götür-qoy eləyirdim ki, Baba əlindəki içi dolu çantanı mənə tərəf uzatdı:

– Bunu götür. Orda mişarçıların briqadiri Saşaya verərsən – dedi.

Timuçin maşının yağını yoxlayırdı. Məni görcək kapotu qapayıb qabağıma gəldi:

– Yaxşı fürsətdi. Atam qonaq otağında dincəlir. Bax, elə bu saat ağnan qaranı ayırd eləyərik. Oturaq bu yaşıl otun üstündə. Nərdi qoyaq qabağımıza. Sənə yağlı bir tas verim? Əsəbləşsən bir bardaq sərin su gillədərsən qurtarıb gedər!

– Hə! Nolar əşşi? Amma yadından çıxarma ki, bura Masallı deyil, doğma torpağım Qubadı. Əsatir qəhrəmanı Axillesə ayağı torpaqda olanda heç kim bata bilməyib. Qulaq ver başın üstündə çırpınan yarpaqlara. Onlar elə indidən qələbəmə əl çalırlar. Ancaq, Timuçin, çox təəssüf, oynaya bilmərik. Təcili meşəyə «İkinci aylam»ya getməliyəm.

– Nədi ki? – dodaqlarını büzüb ciddi-ciddi üzümə baxdı.

– Əşşi, heç nə. Narahat olma. Baba məni başa saldı ki, yaxşı imkan var. Üzü qışa gedirik. Camaat qışa odun tədarük eləyir. Bəs anana odun lazım olmayacaq qışda? Fürsətdi gedim mən də məsələni həll edim. Uzağı bir saata qayıdaram.

Yalan danışırdım. Amma heç kəsə ziyan gətirməyən, məğzində, kökündə mərdimazarlıq olmayan, ancaq bu yerdə işimə rəvac verə biləcək yalançılığıma görə Tanrımdan bağışlanmaq istədim dönə-dönə.

– Sayad xala üçündü? Bunu fikirləşərlər heç?! Gedək də. Kurortlarda da tənbəllik, süstlük basır adamı. Neçə vaxtdır idman zalında ştanq qaldırmıram, iki pudluq daşları atıb-tutmuram, boks məşqlərinə getmirəm. Meşədə əlim-qolum da açılar bir az.

Bir neçə dəqiqə sonra yaxşı tanıdığım «İkinci aylama»daydıq. İçərilərə girdikcə ağaclar qalınlaşır, sıxlaşırdı. Orda-burda baltalar ağaclara çırpılırdı. Quduz it kimi qapan baltalar «caaq-q», «ha-f» səsləriylə ürəyimi sökür, ətimi kəsirdi. Amma görəsən, indi o bulaq başında yaşıl nəfəsli budaqların altında yeyib-içən bəxtəvərlərin ağacların faciəsindən xəbəri vardımı? Xeyr! Toxun acdan xəbəri olmaz. Kotan nə bilir ki, qayış nə çəkir? Bəli, elə bu anlarda da ağacların kökləri, damarları, əmici telləri də yeraltı qayaları sökür, daşlardan keçir, torpağın şirəsini sora-sora ağacları belə şux, nəğməli, bulağı selli-sulu edirdi. Heç kəs bilmirdi, bulağı belə sulu, nəğməli eləyən də burdakı ağacların kökləri, damarları, əmici telləridi!

Bəxtiyar dayı məni görən kimi tanıdı:

– Əşşi, sən hardasan bəs? Gəl çıx da! Balaca, arıq-uruğun biriydin. İndi maşallah, gör nə boydasan! Sənə o sağlamlığı mənim meşələrim verib. Əlin-qolun hərəkətdə olub, qanın yaxşı işləyib. Sən bu meşələrin çır-çırpısıyla böyümüsən. Yemliyin, turşəngin həm də əlası meşədədi. Sən ən tərbiyəli «kadro»larımdan biriydin. Balaca boyunla hamıdan tez tuturdun şələni. Özü də ancaq quru şax-şulaxnan! Eşitmişəm şair olmusan? Ancaq hirs-əsəbdi yazı-pozu işi. Gəl otur yanımda. Payızda kəklik çığırtması, qışda qaban kababı. Kəs-doğra, kömür basdır, dirək yon, qapı-pəncərə bağla, pul qazan!

Saşanı odun xaralarının yanında tapdıq. Gözü-başı mişar tozunda itib-batmışdı. Əl verdi. Barmaqlarının qabarı ovcumu daladı.

– Oho, gör necə qonaqlar gəlib yanıma! – deyə gülümsədi.

Ona çatacaq hədiyyə çantasını irəli uzadıb:

– Baba göndərib – dedim.

Saşa:

– Malades, krasavçik Baba! Bitiy oğlandı. Blatı var böyük adamların arasında. Müştəriləri də yağlıdı,– deyə çantanın ağzını açdı. – Bəh, bəh! Krasavçik Baba. Soğan, göyərti? Bunlar nədi bəs? Kabablar, soyutma ətlər, antrekotlar. Aha, burda iki butulka «Moskovski» də var. Znaçit mən iki ağacın kəsilməsinə kömək edərəm. Sonra girdimləyib xaraya yığarıq. Bəxtiyar dayı da hesablayıb iki kubun pulunu verər sizə.

Timuçin köynəyini soyunub kolların üstünə vızıldatdı. Baltanı başının üstünə qaldırıb var gücüylə ağaca çırpırdı. Balta daşa dəyirdi elə bil, zingildəyir, geri atılırdı. Timuçinin qollarındakı, kürəyindəki əzələlər get-gedə şişirdi.

Saşa əliylə Timuçini göstərərək: – Hə, maşallah, əsl Herkulesdi. Özü də yaman girişib kötüyə. Amma nəyə lazım? Kəsib yıxsa da çox düyünlüdü. Gövdəsi girdələnməyən odun standarta girməyəcək. Babaynan şərtimiz var. Ağacları kəsmək mənim işimdi. Bax, behini də göndərib – deyə çantanı göstərdi. – Bəs burdakı araqlar, yeməklər havayı gəlib? – O, butulkanı yırğalayıb işığa tutdu. Hə, giydirmə, Sumqayıt arağı deyil, təmiz araqdı. Baba tuxdovu göndərməz bura – deyərək butulkanın dəmir qapağını barmağının ucuyla qopartdı. Başına çəkib bir qurtum içdi. Qıdıqlandım. Ağzım sulandı. Hülqumum şaqqıldadı. Ürəyimdə «Oxxay! Get, sən gedən yerə dərd-bəla getməsin» deyib, butulkanın boğazından yapışdım. Saşa geri çəkildi, əlim boşa çıxdı. Onu əlimdən alanda əməlimdən xəcalət çəkdim.

– Dayan da, qaçhaqaç deyil ki… Oçeredini gözlə, – çəmkirdi. Yuxudan ayıldım sanki.

Saşa:

– Bu tərəflərdə çıxdaş olunmuş, nömrələnmiş ağac-uğac yoxdu. Nə vardısa kəsmişik. Komissiya bir də sabah gələcək. Ağaclar yenə saf-çürük olunacaq. Siz də sabahı gözləyə bilərsinizmi? – soruşdu. «Ay evi tikilmiş, gözləmək nədi? Qonaqlıq başlanıb artıq. Mehmanxanada otaqlar ayrılıb. Ağır bir ziyafət verməliyəm. Babanın haqqı çatmalıdı». Fikrə getdiyimi görən Saşa – əlinizdə baltalarla gəlmisiniz. Deməli, ağaclar indi kəsilməli, budanmalı, girdimlənməlidi. Cavan oğlan, – deyə əlini sağ tərəfə uzatdı, – o təpədəki iki fıstığı görürsənmi? Necə də yaraşıqlıdırlar. Bəlkə, hələ min il yaşayarlar. Ancaq mən onları kökündən üzüb üstünü torpaqlayacağam!

– Bəs əlin necə qalxar? Necə qıyarsan? O ağaclar havamızı saflaşdırır, gözəllikləri gözümüzü oxşayır, quşlara vətəndi budaqları, oyuqları koğuşları yurd-yuvasıdı bəzi heyvanların.

– Bəs neyləməliyəm? Biri ölməsə, biri dirilməz. Bu, həyatın qanunudu. Onu da mən yazmamışam. Atayam, mənim də arzularım var. Sizin kimi fasonlu oğlanlar öz mersedeslərində gözəl-göyçək qızlarla gəlirlər bu bulaqlara. Oğluma bir velosiped ala bilmirəm. Yaxşı mebeli, sanballı cer-cehizi olmayan qızlar evdə qarıyırlar! Mənimkinin adını çəkən yoxdu. Ailəmə, uşaqlarıma çörək aparmalıyam. Aldığım maaş iki çoşkanı doydurmağa ancaq çatar.

– Başqalarının bədbəxtliyi hesabına xoşbəxt olmaq insanlıqdan çox uzaqdı, – dedim. – O ağacların hərəsi bir qəhrəmandı. Torpaq altında kökləri bir-birinə birləşir, onlar meşəni yaşadırlar.

Mən meşədən əliboş, suyu süzülə-süzülə çıxdım. Gücsüzlüyün, acizliyin çəkilməz yükü çiyinlərimdəydi. Şənlik dalınca getdim, peşmançılıq tapdım. Qonaqlığım qara gəldi.

İndi mən arağın butulkasını yox, çəlləyini çəkərdim başıma. Kür dizdən, Araz aşıqdan olardı. Ancaq belə də bir də İlyas müəllimin üzünə baxa bilməzdim. Başqa çıxış yolu da tapmırdım. Qayıdım Saşanın yanına, götürüm butulkanı? Amma bəs sonrası necə olacaq?! Geri çəkilsəm əlvida Nizami zirvəsinə bayraq sancmaq niyyətim. Yaşasın «Qızıl qaya» dağının zirvəsindən əbədiyyətə atılmaq! Amma yox, intiharı Quran yasaq buyurub. Allah bağışlamır. Mən cəhənnəm əzabına dözə bilmərəm. Qoy qayıdaq bulağa. Timuçini yerinə çatdırım, – düşünə-düşünə maşına yaxınlaşdım.

Oxumun daşa dəydiyi bir dərd idisə, meşənin başına gətirilən müsibət min dərd oldu. Timuçin maşını bulağın doqqazı qabağında saxladı. Uzaqdan bizi görən Baba irişə-irişə gəlib qoluma girdi:

– Hə, işini düzəltdim də, – deyib üzünü manqallara tərəf tutub amiranə səslə: – Ay uşaqlar, o kəcavə darojkasının sağ tərəfində şəlaləynən üzbəüzdə yaxşı bir stol açın. Qəlyanaltıların, içkilərin də yaxşılarından düzün ora – dedi.

Hirsimdən dişim bağırsağımı kəsirdi. Çənədağım partlayırdı. Uşaqlıq dostum Baba gözüm görə-görə uçuruma yuvarlanırdı.

– Meşədə güclü bir mafioz qrupu işləyir. Ağırlığı, faciəsi tək bizim yox, bəşərin başına düşür. Qoşulmusan o cinayət qrupuna. İlişmisən kuruçoka. Mən səni ordan çıxarmaq istəyirəm.

– Müsəlmana yaxşılıq yoxdu da. Mafioz nədi bilirəm heç?

– Oturduğun budağı baltalayıb özünü də, o budaqdakı quş yuvalarını, o budağın altından keçən qarışqa sürülərini də məhv edirsən. Ay bədbəxt, ay burnundan uzağı görməyən. Səmada Afrika boyda bir sahənin ozon qatı sökülür.

– Əcəbdi vallah. Mən sökmüşəm? Mən dağıdıram o ozondu, nədi onu?

– Tək sən yox! Amma sən də varsan o canilərin arasında. Yerdən qalxan karbon qazları, təyyarələrin, maşınların tüstüləri dağıdır. Sən də o siqaretinin tüstüsünü az pilə gözümə! Udduğumuz hava yarpaqların ucundan çıxır. Nə suda balıq, nə göldə ördək, nə səhrada dəvə oksigensiz yaşaya bilməz. Bulaq sənə pul qazanmağa lazımdır. Ancaq mən dibindəki daşların parıltısına heyranam. Üstündən keçən buludun şəklini nə Rembrand, nə Rafael, heç Səttar Bəhlulzadə də belə canlı çəkə bilməz. Sən öz xeyrini güdürsən burda. İnsan başqaları barədə də düşünməlidi.

– Nə deyim, şairsən də. Səməd Vurğun elə belə yerdə deyib ki, «Şair, göylərdədi yenə xəyalın?» Amma başqaları barədə fikirləşmək, əl tutmaq məsələsində dostun Tahir Sultanova heç kim çatmaz.

– Hardan düşdü yadına Tahir?

– Sürücüsü ağzı bağlı bir qutu gətirib dedi ki, şairə çatasıdı. Qutu da kabinetdədi. Gedək açıb baxaq.

Qapağını çəkib açdım. Burda bir dəst kostyum, bir cüt ayaqqabı, bir köynək, köynəyə yaraşan qalstuk vardı.

– Bu məktub da sənə çatır, – dedi Baba.

Zərfi götürüb fikrə getdim bir an. «Ey hər şeyin yerini, oturuş-duruşunu yaxşı bilən diplomat, siyasət adamı, xeyriyyəçi, güclü biznesmen, söz, şeir xiridarı Tahir. Bura teatr deyil ki, mən də bəzənib oturum. Burda manat, dollar, funt-sterlinq, frank, tümən lazımdı. Bəlkə, əyan olub sənə çətinliklərim. Yəqin, burda pul da var?!». Zərfin ağzını paraladım. Hanı, pul nə gəzir? Məktub vardı. «Sədrəddin, – yazırdı Tahir, – Bakıdan gələn qonaqlarla oturmuşduq. Sizi maşından düşəndə gördüm. Sürücünü tez qaçırtdım sklada. Bu pal-paltarı əyninə geyin. İlyas müəllim çox sanballı yazıçıdı. O, torpaq adamıdı. Sənə mehr salıbsa, deməli, sənə inanır. Sağ olsun etimada görə. Ətəyindən bərk tutub ayağa qalx! Onun başını uca elə, bizi də sevindir. Bağışla, mən qonaqları təcili Bakıya aparmalı oldum».

Baba kostyumun etiketini gözünə yaxınlaşdırdı:

– Hə, ingilisindi, – deyərək pencəyi əynimə tutdu. – Hə, elə bil boyuna biçilib, – dedi. Ayaqqabların daban yerinə baxıb höccələdi – A… di… das. Bu da nemeslərin «Adidas» firmasınındı. Köynək, qalstuk da superdi, – deyib irişdi.

– Əşşi, Tahir yenə xəcalət verdi mənə, – deyib başımı buladım.

– Eh, xəcalətli düşmənin olsun. Varlığa nə darlıq! Dəryada bir damcıdı belə şeylər Tahirçin – deyib qutunun ağzını bağladı.

Bu xəcalət yükünün dəyərini bilmək keçdi ürəyimdən.

– Baba, sən dükan-bazar adamısan. Alverdən başın çıxır. Qiyməti neçə olar bu dəm-dəsgahın?

– Qiymətini dəqiq bilmirəm. Ancaq Qırmızı qəsəbədə ayağı yer görməz. Bariqa Simon beş-altı yüzə göydə götürər.

Dinmədim. İlıq bir meh keçdi ürəyimin başından. Dodaqlarımın qaçdığını hiss eləyirdim. Sevincimi gizlətməyə çalışdım. İndi Babanın «vışşı» stolunda qu tükündən hazırlanmış nalçalar üstündə rahat otura bilərdim. Bərk ayaqda bu hədiyyələri Babaya onun istədiyi qiymətə verər, yemək-içməyin haqq-hesabını çürüdərdim onunla.

Bulaq çökəkdəydi. Dərəni dolduran soyuq, saf hava adamı uzaqdan vururdu. Göyümtül səmasındakı çisək zolağı tül pərdə kimi titrəşirdi. Təri quruyub kürəyimə yapışan köynəyim bədənimi dalayırdı.

Bulağa yaxınlaşdıqca meşə qaranlıqlaşırdı. Dağ döşlərində, yamaclarda Dağıstan aullarını xatırladan «besetka»lar neylon işıqlarıyla bərq vururdu. Dəmir-beton özüllər üstündə ağ daşdan tikilmiş köşk uzaqdan nəzəri cəlb edirdi. İpək pərdələr, divarlarında atılıb-düşən şarlarla o, şahzadə kəcavəsini xatırladırdı. Bulaqla pilləkən arasındakı cığıra xalça sərilmişdi. Ağ döşlüklü, qırmızı bantlı xidmətçi qızlar tez-tez yuxarı boylanır, ordan növbəti tapşırıq, əmr gözləyirdilər.

Kəcavə-köşkdə bir şaqqıltı qopdu. Mən diksindim. Pərdə arxasında butulkadan qədəhlərə çaxır süzənin silueti göründü. Sonra pəncərələr bağlandı. İki kölgə sındı, itdi.

Sol tərəfdə Babanın varlı, kalan kimi qələmə verdiyi qırmızısifət prokuror öz başının dəstəsiylə yeyib-içməklə məşğuldu. Kabablar, çolpalar şişlərdə tüstülənə-tüstülənə gəlirdi. Dolma boşqabları, aş buludları qonaqların başları üstündən qoyulurdu süfrəyə. Üzü bulağa tərəf oturan prokurorun qolu stolun ortasına kimi uzanır, sonra dirsəkdə bükülür, tez açılır, yenə irəli uzanırdı. Stola nəzarət edən Babaya tərəf gəldim. Məni görən prokuror ağır bədənini qaldırdı. Əlindəki salfeti dodaqlarına çəkib cibinə dürtdü.

– Ə… Baba müəllim, qanacağın olsun. Ə… o hörmətli qonaqları niyə oturtmursan yanımda – deyə qollarını ata-ata bizə yaxınlaşdı. – Ziyalımıza canımız qurban. Üzü-başı tüklü olanda noolar? Bir də gördün sabah oldu deputat, raykom katibi. Hə, – deyə dərə aşağı şırıldayıb gedən bulaq arxına tərəf uzatdı əlini. – Bayaq siz maşınla harasa getdiniz, amma sizinlə o Bakıdan gələn o yaşlı yoldaş kimdisə belə bir cürə qəribə adamdı.

Timuçin qaş-qabaq salladı.

– Siz İlyas müəllimi deyirsiniz? Əlbəttə, çox təbii, sadə, olduğu kimi görünən, hər cür rəngdən, təşəxxüsdən uzaq sənətkardı, – dedim, – o kişidə nə görmüsüz? Sizi təəccübləndirən nədi ki? – soruşdum.

– Əşşi, gəlib durdu o arxın böyründə. Suyun axmasına, dibindəki daşlara baxa-baxa elə bil nəsə danışdı. Arxın axarıyla üzüaşağı gedib bax, o çəmənlikdə çömbəldi. Əllərini yan-yana qoyub, xəkəndaz ovuclarıyla suyu çəkdi başına. Görünür, odalovu çoxdu canında. Ancaq tanış gəldi mənə. Elə bil hardasa görmüşəm. Kimdi o kişi?

– Yazıçıdı. Şair ürəkli dramaturqdu. İlyas Əfəndiyevdi – dedim.

– Pah atonnan! Qismətə bax ey! Bizim uşaqların anası o yazan teatrların birini də buraxmır. Sonra da evimizdə bir ay söhbəti gedir tamaşanın. «İlyas müəllim belə asdı, belə kəsdi» – deyə elə hey tərifləyir. Mən də bir-iki kitabını oxumuşam. Prezident fərmanıyla neçə dəfə orden alıb. Bunlar hamısı çox gözəl. Başa düşdüm. Ancaq o talanı görürsənmi – deyə qayalıqlar arasındakı açıqlığı göstərdi. – Hə, bax o taladakı vələs ağacını görürsənmi?

– Hə, görürük, – dedi Timuçin. – Nə olub ki, ağaca?

– Nə bilim! Amma İlyas müəllim o ağacın başına dolana–dolana nəsə danışırdı. Sonra o ağacın başı aşağı şiv budaqlarını dikəltdi. Sonra da o vələsə qısılan körpə qarağac var ha, hə, onun yaşıl yarpaqlarını sığalladı. Sonra gedib o aralıdakı qayayla çiyin-çiyinə durdu. Bağışla məni, müəllim, – deyə gözlərimə zilləndi. – Mən çox arif adamam. Ancaq İlyas müəllimin o hərəkətlərini başa düşmədim.

– Hə, hər şey aydındı. Hələ sən İlyas müəllimi təzə əsərinin məşqlərində görəsən. Amalyanı gah səhnə önündə, gah da pərdə arxasında danışdırır. Yaşar Nuri əvəzsiz aktyordu. Səsi gur, tembri səlisdi. Amma bəzən sözün axırını yeyir. Belədə İlyas müəllim o sözü dönə-dönə təkrar etdirir. Çox güman ki, İlyas müəllim o talada təzə əsərinə quruluş verirmiş?! Vələslər, qarağaclar, qayalar da onun canlı artistləridi.

– Hə, belə de. Ondan bir xahiş eləsəm sözüm yerə düşməz ki? – dedi çəkinə-çəkinə prokuror.

Timuçinin eyni açıldı. Üzünü mənə tutub:

– Bu məzəli dayı Respublika Prokurorluğunda sanballı vəzifəyə getmək istəyir, yəqin, – dedi və gülümsədi.

***

Baba komanda vermişdi – «Bakıdan gələn yazıçılara «vışşı» qulluq olunmalıdı». Xidmətçilər səpəndaz vələsin kölgəsinə stol qoydular. Ağ döşlüklü qarabuğdayı qızın təkcə əl-

ləri deyil, gözləri, qaşları da «iş» görürdü. Biləyə kimi çırmanmış qollarını stolun bu başından o başına uzadıb süfrənin qırışlarını düzəldir, köhnə çəngəl-bıçaqları görəndə qaşları çatılır, civə kimi qaynayan gözləriylə talvar altındakı kababçıları da tələsdirirdi.

– Nazlı, ay Nazlı – iki ağız çağırdı Baba.

– Bəli, Baba dayı, – deyə arxaya boylandı burmasaçlı qız. Onun başına bir tabaq xurma boşaltmışdılar sanki. Bir-birinə yapışan xurmalar qızın boyun-boğazında burulub asılmışdı.

– Kabinetimdə cürbəcür, hələ əl dəyilməmiş, qatı açılmamış servislər var. Yaponskilər məsləhətdi. Abedniləri düz stola!

Xurmasaç qız dəsmalını yelləyib bizi süfrəyə dəvət etdi.

Bulaqdan axan arx talanı ikiyə bölür, sonra qaya başında sınaraq başıaşağı şığıyır. Şəfəqlər altında parıldayan şəlalə yağış altındakı ağ dam dəmirlərini xatırladırdı.

Suları qayaların dişlərinə sürtünüb nazilir, tar-kaman simləri kimi titrəyir, səslənirdi. Şahdağdan üzüaşağı təpilən külək vələsin budaqlarını Çin hökmdarının başı üstdəki yelpiclər kimi endirib, qaldırırdı.

Nazlı əlindəki dəsmalı döşlüyünün cibində gizlədərək:

– Ay İlyas müəllim, sizi göydə axtarırdım, yerdə əlimə düşdünüz, – deyib qoluna girdi.

– Hə, xeyir ola! Amma ağ baxtınız var. Çox gözəl. Mənə nə qulluğunuz? – sualedici nəzərlərlə baxdı qıza. Sonra gülə-gülə qoltuğundakı əli sığalladı İlyas müəllim.

Nazlı:

– Bircə dəqiqə… Sizə bir sürpriz! – deyərək iti addımlarla zambaqların arasındakı xidməti stoluna yaxınlaşdı. Siyirtmələri dalbadal çəkib baxdı. Əliylə nəsə axtardı. Qapılarını taybatay açanda aynası da açıldı. Ordan götürdüyü kitabı varaqlaya-varaqlaya bizə tərəf gəldi. İlyas müəllim hesabdar dəftərinə oxşayan göy, miləmil bloknotunda qeydlər aparırdı. Nazlı barmaqları ucunda ona yaxınlaşaraq kitabı dirsəyinin altına

yeritdi. İlyas müəllim diksinən kimi oldu. Ancaq «Hekayələr» kitabını görüncə dodaqları səyridi. Ayağa durub:

– Əhə, əhə, – öskürdü. – Heç gözləməzdim. Kitabım bu ucqar kəndə də gəlib çıxıb?!

– Hə, bu kitabdan qabaq onun sorağı çatıb kəndimizə. Sonra Bakıya – Azərkitaba sifariş verdik. İki yüz nüsxə göndərdilər. Amma kitablar iki günə satılıb qurtardı. Amma indi siz bu kitaba – deyə barmağını titul səhifəsinin üstünə qoydu, – bir avtoqraf yaza bilərsinizmi?

– Elə yazaram! Hələ oxucuma bir «çox sağ ol» da deyərəm. Amma maraqlıdır! Heç ürəyindən tikan çıxaran bir şey tapdınmı burda?

– Əlbəttə, hekayələrin hamısı maraqnan oxunur. «Apardı sellər Saranı» yanan bir ürəklə yazılıb. Varaqlardan od tökülür. O Saraya həsr olunan bir mahnı var – «Arpa çayı aşdı, daşdı, Sel Saranı aldı qaçdı» – hə, onu hər dəfə eşidəndə qəzəbim tutub, o çayın qurumasını istəmişəm. Ancaq sizin hekayənizdəki Sara o mahnıdakı dilsiz-ağızsız, müti Sara deyil. Tomris ananın döşündən süd əmən, Həcər qeyrətli, çox cəsarətli bir qızdı.

İlyas müəllim – əhə, əhə, – iki ağız öskürüb əlini saçlarına apardı. Bəs necə? Həyəcan təbillərinin əks-sədalarını eşidən yazıçının üzü gülür, gözləri qaynayırdı? O, güllələrinin boşa getmədiyinə, hədəfdə onluqlara oturduğuna sevinirdi.

– Mahnıdakı Saranın özünü suya atması o zamankı zorakılığa, ictimai quruluşa atılan bomba olub, – dedi Nazlı. – Amma indi başqa dünyadayıq. Qadın səs verir, deputat seçilir, idarə başçısı, sovxoz direktoru, müəllim, həkim olur. Hər yerdə qadın azadlığından danışılır. Amma «Qız yükü, duz yükü» deyib saç yolur bəzi ata-analar bu gün də. Qızlarını kimə gəldi verib başından eləmək istəyir bəzi valideynlər.

– Hə, xüsusən cənub rayonlarında. Çox təəssüf! Görünür, maariflənmə işləri az aparılır o yerlərdə, – deyib başını buladı İlyas müəllim.

– Ancaq kəndimizdə elə qızlar var ki, hüquqlarını qoruyurlar. Yaxşı eləyirlər, lap əllərinin içindən gəlir. Sevmədiyi yaşlı bir kişiyə ərə veriləcəyini eşidən bir qız göz yaşlarını selə döndərməyib, hay-həşir salmayıb, anasından yardım-filan istəməyib, ancaq sizin kitabınızdakı «Sara» hekayəsini gətirib qoyub atasının qabağına, başının üstündə də durub ki, ata, oxu bu hekayəni.

– Hə, afərin, çox diribaş, müasir qızdı. Bəs sonra, bir nəticəsi oldumu bu təkidin, tələbin?

– Əlbəttə, olub! Ata nişanı geri qaytarıb. Həmin qız indi universitetin filologiya fakültəsində oxuyur.

– Çox cəsarətli bir addım atıb o qız. Haqqında maraqlı bir şeir yazmaq olar, – deyə mənə tərəf çevrildi. – Hə, necə baxırsan? Bir portret-oçerk, radio üçün oynaq, lirik bir novella da yazmaq olardı. – İlyas müəllim məni yazı-pozuya, yaradıcılıq işinə cəlb etmək məqsədiylə taktiki hücumlarını davam etdirirdi. Mən qayğıkeşimin inadkarlığına sevinir, hörmətim birə-min artırdı. Sonra üzünü xurma hörüklü Nazlıya tutdu:
– O qız əsl qəhrəmandı. İcazə verin mən bu kitabı o qəhrəman qıza bağışlayım. Adını deyə bilərsinizmi?

– Deyərəm. Adı Nazlıdı.

– Hə, – deyə kitabın titul səhifəsinə imza atıb qıza tərəf uzatdı. – Bunu Nazlıya verərsiniz.

– Çox sağ olun. Amma kitab mənə çatır.

– Sizə niyə?

– Nazlı mənəm, – deyib başını aşağı saldı qız.

– Universitetin hansı fakültəsində oxuyursan?

– Filologiya fakültəsində. Qiyabiçiyəm. Şeirlər, hekayələr də yazıram.

İlyas müəllim bloknotunun üstündəki qızıl perolu qələmi Nazlıya tərəf uzatdı.

– Bu qələmnən yazılana pozu yoxdu. Ayağı düşərlidi çox. Nə yazmışamsa çap olunub. Sənə bağışlayıram. Bağışlayıram ki, gözəl, təzə şeirlərlə yanaşı, bəlkə, bir «Apardı Sellər Saranı» yox, «Sellər Saraları apara bilməz» ruhlu hekayə də yazasan.

– Eh! Nə bilim? Bəlkə, atalar qızlarını verməkdə düz hərəkət eləyirlər?– deyib ağlamsındı Nazlı. Sonra çətin eşidiləcək tərzdə – sizə nə gətirim? – soruşdu.

Sınaq məqamı çatdı, bıçaq sümüyə dirəndi. İlyas müəllim ağzını açmamış sifariş verməliyəm. Bəs necə? Hansı pulnan? Ya Rəbbim, sən çat dada! Və çatdı! Bəli, birdən ağlıma gəldi ki, Tahirin sürücüsünün gətirdiyi o lüks pal-paltar, qiymətli hədiyyələr bu çətin macalda əlimizdən tutar. Baba da beş-altı yüz qiymət kəsmədimi? Qurban olsun o pulların hamısı buradakı bir qonaqlığa!

– Nazlı xanım, acından üzüldük! Sən Allah, yağlıdan, yavandan nə varsa yavaş-yavaş, amma bol-bol gətirin – dedim. – Amma sulu tat çığırtması da, cincilimli, quşəppəyili göy qutab da yaddan çıxmasın, – deyə əlavə etdim.

Az sonra süfrəmiz ləziz yeməklərlə doldu.

Nanəsi, yarpızı çox qatılan dana soyutmasının ətri uzaqdan vururdu. Qara ətlərin arasında ağaran quyruq tikələri çəngəlin ucunda əriyir, sirkə-sarımsaq iştahı daha da artırırdı. Amma yuxarıda, aynabəndində yaşıl-qırmızı şarlar oynayan kəcavə-köşkdə qurbağa gölünə daş atmışdılar. Süfrə arxasındakı qulbeçələr qorxa-qorxa pendirdən, çörəkdən bir qırıq götürür, kresloya yayxanıb yeməyə ikiəlli girişən birinci katibə altdan-altdan baxır, susur, əmr, tapşırıq gözləyirdilər.

– Yemək yeyəndə qulaqların niyə tərpənir, ə, yoldaş Novruzov?

Amma Novruzov heç nə yemirdi. «Qulaqlar dayanan yerdə, öz-özünə tərpənə bilərmi?» – deyib qayıtmaq istədi katibin üzünə. Amma «lənət şeytana» deyib yerindən dik atıldı.

– Baş üstə, yoldaş Ömərov, qulaqlarım daha tərpənməz, – deyib qulaqlarını ovucladı.

– Aç qulaqlarını, ə…ə…ə, mənim günümə bax ey! Gözəlçə çox gözəldi, vurdu çiçək çıxardı. Onsuz da anlamaz, gec qavrayansan, qulaqlarını da bağlasan olarsan odun! Bayaq sənə tapşırıq verdim ki, o İlyas müəllimi gətir yanıma! Nooldu bəs?

– Nə illah eləsəm də gəlmədi.

– Niyə? Motivi nədi axı?

– Siz deyən heylə əsaslı bir motiv bildirmədi! «Çox sağ olun» deyib durdu.

– Dil-ağız eləyəydin bəs! Deyərdin ki, tez-tez sizdən danışır birinci katibimiz. Təsərrüfat iclaslarında da tamaşalarınız barədə bizə qiymətli məlumat verir! O sizinlə oturmağı özünə şərəf sayır. Böyük yazıçısınız. Axı sizi ölkə başçımızla bir yerdə çox görmüşük. Rəhbərimiz tez-tez teatra gəlir, sizin tamaşalarınıza baxır. Ordenlər-medallar verib, xalq yazıçısı eləyib sizi. Qulluğunuzda durmaq borcumuzdu bizim də. Belə əsaslı təkliflər verib mövqeyimi bildirə bildinmi?

– Bəli, bəli! Dedim, yoldaş Ömərov. Onu da qeyd elədim ki, keçən il siz bizim «Baharlı» sovxozunda yaşayan bacınızgilə gəlmişdiz. Ora işıqlar tez-tez sönən yerdi. Biz öhdəsindən gələ bilmir, həll edə bilmirdik bu problemi. Amma siz Bakıya bircə dəfə zəng etdiniz. Odu-budu Baharlıda gecə-gündüz işıqlar yanır. Sizə böyük hörməti var bizim katibin. Yoldaş Ömərov xətrinizi çox istəyir, dedim.

– Hə, yaxşı demisən. Bəs o nə cavab verdi?

– Dedi ki, salamımı çatdırın ona. Amma neyləyim, başıma bu qədər dost-tanış toplaşıb. Bu boyda məclisi burda qoyub mən heç yana gedə bilmərəm. Katib bağışlasın məni.

– Otur yerinə, yaramaz. Partiya işçisi ilanı yuvasından çıxarmağı bacarmalıdı. Görünür, özüm qarışmalıyam bu işə.

Kəcavə qəbir sükutuna qərq oldu. Amma ətrafdakı besetkalarda həyat qaynayırdı. Şaqqanaqlar yarpaqları titrədir, şampan tıxacları qulaq batırırdı. Birdən bizimlə qarşı-qarşıya qoyulmuş stoldan enlikürək bir oğlan yerindən qalxaraq:

– İlyas müəllimə eşq olsun! Böyük yazıçıya hörmət və ehtiram! – deyə bağırdı.

Şaqqanaqlar xırp kəsildi. Təndirxanada kündə yayan arvadların oxlovları tabağın ortasına mil kimi sancıldı. Kababçılar gözlərini yandıran tüstüləri əlləriylə qova-qova qışqırıqçını axtardılar.

Enlikürək oğlan:

– İlyas müəllim, həyat möcüzələrlə doludur. Təəccüblənməyin. Mən sizin «Unuda bilmirəm» əsərinizə teatrlarımızın səhnəsində yox, uzaq İspaniyada bir gəmi göyərtəsində baxmışam. Bundan xəbəriniz varmı?

İlyas müəllim ayağa qalxdı. Bir an əllərini qoymağa yer tapmadı. Gah mənə, gah Timuçinə, gah da daşların, kötüklərin üstündə oturan qonaqlara baxdı.

– Necə, necə? İspaniyada? Gəmi göyərtəsində? Nə vaxt? Eşitməmişəm. Hə, olar. Ancaq bir vaxtlar teatrlarımızın səyyar truppaları məktəblərin böyük sinif otaqlarında, mədəniyyət evi olmayan kəndlərin taxıl anbarlarında, köhnə məscid küncləriində tamaşa göstəriblər. Bəzən lap xırmanlarda da, bəli, bəli, taxıl dərzləriylə saman tayaları arasına pərdələr çəkib, səhnə qurub, əsər oynayıblar. Amma gəmi göyərtəsində... Xarici ölkədə? Dayan bir görək?! – deyə əliylə alnını ovuşdurdu. – Amma bir dəfə... Hə, keçən il bank hesabıma çox iri məbləğ köçürmüşdülər. Hardan gəldiyinin təfsilatına varmadım. Səhnə əsərlərimi Daşkənddə, Türkmənistanda, Biş-

kekdə də oynayırlar. Pribaltika ölkələri nəsrimi mütəmadi çap edir. Ancaq o pul köçürmələr içində bir xarici valyuta da vardı.

– Bəli, o valyuta sizin «Unuda bilmirəm» əsərinizin qonorarı olub, – deyə İlyas müəllimin əlindən tutdu oğlan. Onun dalğavari köynəyi bədəninə kip yapışmışdı. Enli kürəkləri lay divar idi. Zil qara saçları boynunun ardında sınır, geri qayıdırdı. Qızğın və həyəcanlıydı. Birdən iri qara gözləri gün eynəyinin şüşələri kimi parıldadı. – Nə gözəl təsadüfdü? İlyas müəllim, icazə verin yanınızda lövbər salım, – dedi.

İlyas müəllim:

– Əlbəttə, çox məmnun olaram. Gəl əyləş! Dənizçilərə qurunun hər qarışında istədikləri, bəyəndikləri yerdə yer var, – deyə gülümsündü.

Mən yerimdən qalxdım. İlyas müəllim qolumdan tutdu. Timuçin qonağa yer göstərdi.

– İlyas müəllim, adım Səxavətdir. Uzun müddət Xəzər gəmiçiliyində «Rəşid Behbudov» gəmisində matros işləmişəm. Sonra işləyə-işləyə oxuyub kapitan oldum. Dünya sularında üzmək imkanları qazandım. Hava xoş, yol rəvan olanda kayutlarda kitab oxumaq olub işimiz. Sizin bir romanınız var, adı da «Geriyə baxma, qoca»dır. Əlbəttə, bir az kədərlidi. Arxada nə qalırsa əldən üzülən, itmiş olandı. Əriyən saatlarımız, günlərimizdi. İllər boyu neçə-neçə yollar, izlər açdım sularda. Amma indi nə qədər axtarsam heç birini yerində tapa bilmərəm. Geriyə baxanda adam bir az qocalan kimi olur. Geridə qalanlar köhnə, artıq işləməyən pul kağızları kimidi.

İlyas müəllim mənə tərəf çevrildi:

– Sədrəddin, dənizçi dostumuz da şair kimi danışır!

– Axı dənizçilər bu sahildən ayrılmamış təzə bir sahilin sevdasına düşürlər. Ev-eşik, torpaq həsrəti onları bir an belə tərk etmir. Kövrəlir, incələşirlər. Səma dərinliyində, üfüq genişliyində, suların al-əlvan rənglərində şeiriyyət var.

– Ay İlyas müəllim, o romanda ən çox xoşuma gələn nədi, deyimmi?

İlyas müəllim həyəcan təbillərinin əks-sədasını eşidirdi. Ürəyinə yağ kimi yayılan bu səslər onu həyəcanlandırsa da susur, bu səsləri eşitmək, eşitmək istəyirdi. Dodaqlarından başlayan təbəssüm işıqları bütün çöhrəsini bürüyürdü. Sənətkar sevinirdi. Bəs necə? Əkdiyin bağın bəhrə-barını görmək böyük, ölçüyəgəlməz səadətdir. Amma mən də özümdə deyildim. Nəfəsim titrəyir, ürək döyüntülərim qulaqlarımı deşirdi. İçərilərimdə bir qibtə hissi baş qaldırmışdı. İlyas müəllimin gözlərinin necə böyüdüyünü, alnındakı qırışların necə cana gəlib oynadığını görür, aşıb-daşan sevinclərinə həsrətlə baxırdım. Bu kişini əlçatmaz qələbələrə, ilahi səadətlərə çatdıran, el arasında, xalq içində belə nüfuza, hörmətə mindirən səbəblərdən biri də onun uzun, kəşməkəşli həyat boyu bir qədəh içki içməməsinə açıq-aşkar paxıllığım tuturdu. «Qalxıb dikələ bilərəmmi, çata bilərəmmi o nüfuzlara, hörmətlərə?» – düşünür, əziyyət çəkirdim.

– Hə, çox maraqlıdı. Bəs o romanda xoşuna gələn nədi axı? Bəlkə, Qarabağın səfalı təbiəti, insanlarının səmimiliyi, torpağa bağlılığıdı?!

– Yox, İlyas müəllim, o dedikləriniz öz yerində! Amma Qarabağda uzun ömür sürmüş Bayraməli kişi belində bir mauzer gəzdirir.

– Bəli…

– Hə, romanı oxuduqca izlədim görək o mauzer neyləyəcək? Bah atonnan, silah bir dəfə də olsun açılmadı. Amma Allah eləməmiş açılsaydı Turşsunun, İsa bulağının bülbülləri avara, didərgin düşərdi o yerlərdən. Qarabağın o qaymaq havası zəqqətuma dönərdi. Tüstü-qurum sinə göynədər, dil-boğazı qurudardı. Sonra mahnı-musiqi dünyası Seyid Şuşinski, Xan əmi, Bülbül kimi müğənnilərdən məhrum olardı.

– Sən yaxşı tutmusan bu detalı. Əsaslandırıb məna vermisən silahın açılmamasına. Bəlkə, bu epizodu akademik Məmməd Arif, Məmməd Cəfər də belə ümumiləşdirə bilməzdilər. Bəs ay oğlum, bir az nigaran qaldım. Gəmi göyərtəsində, özü də xarici ölkədə hansı aktyorlardı o tamaşanı oynayan?

– İlyas müəllim, çox cansıxıcı keçir dənizdə günlər. Domino, nərd dənizçiləri bezdirir. Tunisdə gəmidən düşən kimi xoruz döyüşməsinə baxmağa gedirdim. Əlcəzairdə sim pəhləvanlarının oyunları canlı tamaşadı. Tuzlada itlərin qapışmasına heyranlıqla baxır matroslar. Matros olduğum vaxt biz «kollektiv poxod» eləyirdik belə teatrlara. İndi mən müstəqil kapitanam. İstanbulda öz Gəmiciliyim var. Keçən il Barselonada bir neçə gəmimi təmirə qoymuşdum. Azərbaycandan gələn iki gəmi də yük boşaldırdı orda. Başqa iki gəmi də yük vururdu. Bir gün mən Kasparlı dənizçilərlə ərəblərin göstərdikləri «Pələng ovu» tamaşasına gəldim. Herkulesə oxşayan bir cəngavərin pələnglə qapışmasından vəcdə gələn dostlarım səhnəyə gül dəstələri atırdılar. Elə ordaca bir ideya yarandı məndə. Bu bayağı, qondarma əyləncələrdən nə götürür dənizçilərim?! Bizim gözəl teatr tamaşalarımız var. Köməkçimi xüsusi təyyarəmlə doğma şəhərim Lənkərana göndərdim. İki gündən sonra oranın Dram teatrı Barselonaya gəldi. İlk tamaşa «Kompozitor Qara Qarayev» gəmisinin göyərtəsində oldu. Artistlərimiz «Otello» dramını oynadılar. İlk tamaşaya bizim dənizçilər, burada günəmuzd işləyən yüzlərlə Çin türkü, İran gəmilərinin ekipajları baxdı. İspaniyanın televiziya kanalları tamaşanı parça-parça göstərib, rejissor işini təriflədilər. Qəzetlər «Azərbaycan aktyorları virtuozdu» yazır, tamaşadan şəkillər verirdilər. O günün səhəri Barselonanın meri gəmiyə gəldi. Kayut kompaniyada dənizçilərimizi üzüm çaxırıyla pizzaya qonaq elədi. Sonra Bələdiyyə teatrının binası artistlərimizin ixtiyarına verildi.

Təbiətən sakit İlyas müəllim kipriklərini tez-tez qırpır, gözləri qaynayırdı:

– Ay canım, gözüm. Bu hələ tarixdə görünməmiş bir qəhrəmanlıqdı. Soyuq müharibənin qızğın çağıdı. İspaniya isə o ocağın ən qaynar gözüdür. Sən orda böyük Azərbaycan mədəniyyətini nümayiş etdirib, dahi Servantesin ruhunu sevindirmisən. Əlimdə ixtiyar olsaydı, elə burda sənin döşünə bir «Xalqlar Dostluğu» ordeni sancardım.

– Orden nədi? Soyuq, cansız dəmir-dümürdü. Biz ancaq sizin sağlığınızı istəyirik ki, təzə əsərlər yazasınız. Ən uğurlu tamaşanız «Unuda bilmirəm» əsəriniz oldu. Onu bir gündə iki dəfə oynadılar aktyorlarımız.

– Çox qəribədir, – deyə bir an fikrə getdi İlyas müəllim. Sonra da yavaş-yavaş sözünü davam etdirdi. – İspan tamaşaçısını heyrətləndirmək, onu iki saat tamaşa zalında oturtmaq çətin məsələdi. Lakin siz bunun öhdəsindən gəlmisiz! – bunu cəsarətlə, hamının eşidə biləcəyi tərzdə dedi.

– Axı, əzizim İlyas müəllim, bu gün ispan tamaşaçıları hər cür «izm»lərlə dolu, özünü doğrultmayan eksperiment əsərlərə baxmaqdan bezib, təngə gəlib! Amma bizim dramlarımızda ortaya konkret həyati problemlər qoyulur və aydın-aşkar həll olunur. «Sevil»də Azərbaycan qədim İslamın mütilik, köləlik çadrasından yaxa qurtarır. «Od gəlini»ndə Aqşin dini xurafatlara qarşı üsyan qaldırır! Sizin «Unuda bilmirəm» pyesinizdə tamaşaçılar Kamran və Nərminin öz səadətləri uğrunda birgə apardıqları mübarizənin qələbəsini sürəkli alqışlarla qarşılayırlar.

– Görəsən, hansı obraz daha çox xoşlarına gəldi? – deyə İlyas müəllim uşaqlara xas utancaqlıqla başını aşağı dikdi.

– Kamran obrazı. Prokuror Kamran.

– Nəyə görə? Axı ay oğlum, mən Kamranın boyasını, rəngini çox vurub onu şirinləşdirməyə çalışmamışam.

– Bəli, İlyas müəllim. Amma Kamrana böyük məhəbbət və rəğbət göründü Barselona səhnəsində. Bunun da səbəbi var. Axı İspaniya da bir çox Avropa ölkələri kimi kriminal bir ölkədir. Narkomaniya, qadın zorakılığı, hər cür quldurluğa qarşı mübarizə aparan polis rəisləri, prokurorlar, inzibati orqanların icraçıları bir çox hallarda humanistlik, insanpərvərlik hislərini itirir, qaba bir mexanizmin cansız vintinə çevrilirlər. Lakin sizin prokurorunuz Kamran yüksək insani keyfiyyətləri ilə sevilir. Nərminə olan məhəbbəti naminə ona bu yollarda mane olan «məhəbbətinin rəqibini» – Cəmilin günahlarını bağışlayır, onu cəzalandırmır. İspan tamaşaçıları arzuladıqları, həyatda görmək istədikləri müsbət, alicənab, humanist prokuror obrazını sizin əsərinizdə görürdülər. Anşlaqla gedən pyesiniz artistlərimizi yeni əsərlərinizi oynamağa ruhlandırdı.

– Sən ağlabatmaz, çox sanballı bir iş görmüsən. Demək, Azərbaycan teatrına Avropa səhnələrində uğurlar qazandırıb Mirzə Cəlilin, Hüseyn Cavidin əsərlərinə yaşıl işıq yandırmısan. Ümidvaram yaxın gələcəkdə elə bizim Sədrəddin də – deyə üzümə baxdı, – bəli, bu gözəl şairimiz də orijinal şeirləri, sanballı poemaları ilə ispan oxucularını sevindirəcək. Belə uğurlara görə sənin xəcalətindən necə çıxım, ay oğul?

– İlyas müəllim, xalqın yaddaşında bir «Sim-Sim» xəzinəsi var. Siz o xəzinənin ən qiymətli daş-qaşlarından birisiniz. İşığınıza, nurunuza ehtiyacı tükənməzdi bu millətin.

Araya çökən sakitliyi boğuq heyvan böyürtüləri pozdu. Vələsin altındakı cığırda bizə sarı dal-qabaq bir kişi, bir qadın gəlirdi. Beli donqar kişi heyvanın buynuzlarına bağlanmış ipi var gücüylə çəkir, qoç dırnaqlarını yerə mıxlayıb geri dartınır, yerindən tərpənmirdi.

– Ay Şahnaz, bu heyvanı niyə incidirik biz? Günahdı axı. Burda kəsilməlidisə qoy elə üzüm də başını.

– Bir aman ver, qurbanı çatdıraq yerinə də!

Donqarın başı boynuna batıq olduğundan qulaqlarının ucu az qala çiyinlərinə yapışırdı. Qayışının altından çıxan köynəyi qabaq tərəfdən dizlərini tuturdu.

– Bir macal ver, ay Süleyman – deyərək ərinə çəmkirdi qadın. Sonra əliylə İlyas müəllimi göstərərək – odey, illərlə arzuladığımız İlyas müəllimin özü, öz ayağıynan gəlib Qəçrəş bulağına! Gəlməyinən də kəndimizə hay düşüb. Camaat yoldadı. Bu gün bayram olacaq burda. O qara qoç da İlyas müəllimin ayaqları altında kəsilməlidi. Yadında döyül bəs, qulağının dibində neçə dəfə niyyət elədim?

İlyas müəllim yerindən qalxdı. İrəli keçib çox ucadan danışan, bu hökmlü qadının əlindən tutub onu sakitləşdirmək istədi.

– Ay qızım, bu boyda mərəkə, bu pay-püş nəyə lazım! Mən də xəcalət çəkirəm axı. Sən Allah, bir sözünüz, xahişiniz varsa, utanmayın, deyin. Əlimdən gələni əsirgəmərəm. Bəlkə, övladınız Bakıda ali məktəbə girmək istəyir? Gəlsin Bakıya, oğlum Timuçin sənədləri qaydaya salıb yerinə çatdırmağa kömək edər. Bəlkə, xəstəxanayla bağlı çətinlik var? Səhiyyə Nazirliyinə zəng vurub danışaram, xahiş elərəm. Bəlkə, hansı müəssisəyəsə işə düzəlmək istəyirsiniz? Gözüm üstə. Daha buna görə qurbana, xonça-xələtə ehtiyac yoxdu!

– Yox, İlyas müəllim, xahişə-filana yox, sizə minnətdarlıq bildirməyə gəlmişəm, – dedi qadın. – İndi çox xoşbəxtəm – deyə gülümsədi. – Buna görə göydə Allaha, yerdə sizə borcluyam. Səbəbi bir hekayənizdi. Yazan əlləriniz var olsun. Hə, o hekayə məni yerin yeddinci qatından çıxarıb göyün yeddinci qatına qoydu.

– Hə? Əhə–əhə – iki ağız öskürdü İlyas müəllim. Qaşları yüngülcə çatıldı. – Ay xanım, xoşbəxtlik Tanrı, tale qismətidi. Amma hay var dağa qaldırır, hay da var dağdan endirir. Bədii sözün şəhərlər saldırmaq, qalalar qaldırmaq gücü var. Amma maraqlıdır çox, hansı hekayədən gedir söhbət?

– Bax, bu Süleymanı görürsüzmü, sağlam, buz baltasıdı. Qışın soyuğunda Qudyal çayında çimir, gecələr də həyətdə talvarda yatır. Əyləncəsi, teatrı, kinosu da – traktordu. Mən doqquzuncu sinifdə oxuyurdum. Bir gün qabağımı kəsib dedi ki, səni çox istəyirəm, Məcnundan betərəm. Mənə öz xoşuna gəlməsən, zornan qaçırdacam. Mən də şax üzünə dedim ki, sənə heç vaxt getmərəm. Bəyənmədim. Dedim, traktoristdi, neynirəm onu? Aradan xeyli keçdi. Sonra bir gün də Kənd Sovetinin sədri seçdilər məni. Bu Süleyman neyləsə yaxşıdı? Traktorunu söykədi evimizin barısına. «Mənə gəlməsən yıxacam barınızı», dedi. Ağlamaq tutdu məni. Mazut qoxusu, solyarka ləkələri gözümə durdu. Elə bu gərgin vaxtlarımda sizin «Qırçı və qırmızı gül» hekayəniz düşdü əlimə. Oxudum. Nə gördüm, Allah, gözəl-göyçək bir qız – bəlkə, mən əlinə su tökməyə yaraşmaram – hə, həmin o qız, məhlələrində qır qaynadan bir oğlana vurulub. Yuxudan ayıldım elə bil. Daha məni saxlamaq olar? Tərəddüdə yer qalmadı. Ay İlyas müəllim, balaqlarımı yığıb düz traktorun səsi gələn yerə yüyürdüm. Qalxıb oturdum kabinkasında. O gündən elə xoşbəxtəm ki. Bir sözümü iki eləmir. Onu elə çox istəyirəm ki, mazut, solyarka qoxusu «Krasnı Moskva» kimidi mənimçün.

– Ay Şahnaz, indi bu heyvanı kəsim burda, yoxsa diri-diri Bakıya aparacaq müəllim? – deyə ayağını qara qoçun boğazına qoydu Süleyman.

– Yox, Bakıya niyə? – deyə etirazını bildirdi İlyas müəllim. – Bakının yarısından çox adam var burda. Bir elik, bir camaatıq…

Fotoaparatlar göz qamaşdırır, şəkillər əlüstü paylanırdı. Kötüklər üstündə oturub daşları süfrəyə çevirənlər də yerlərindən qalxıb badələrini İlyas müəllimə tərəf uzadır, «İlyas müəllim min yaşasın», «Qələmi korşalmasın» – deyə bağırır, badələri başlarına çəkirdilər. Bir yandan qibtə hissi, bir yandan da içkiyə qoyduğum qadağa, məhrumiyyətlər məni qıcıq-

landırır, açılışa bilmirdim. Gülənlərə qoşulub gülmək istəsəm də, dodaqlarım azacıq aralanır, ancaq ürəkdən gülə bilmirəm. Yox, bu təntənələrə sidqi ürəklə qatılmalı, bir sağlıq deyib məclisi gücləndirməliyəm. Arağı başıma çəkim, gözlərim böyüsün, dilim açılsın, başım-beynim ayazısın, coşub-daşım, ustadımın necə böyük ürək sahibi, suda batanlara əl verən, yıxılanları qaldıran, acizlərə arxa-kömək olduğunu bəyan edim. Stəkanı götürdüm. Qızmış, tərləmişdi elə bil. İçəri üzündə göz yaşına oxşayan damlalar asılmışdı. Arağın zəhərli yanğıları tərlətmişdi stəkanı. Məni də soyuq tər basırdı. Elə bu an özünə olduqca tələbkar İlyas müəllimin yazıçı taleyindən necə gileyləndiyi düşdü yadıma. «Nə olsun ki, sanballı əsərlərim var, uğurlu, xoşbəxt yazıçıyam. Ancaq bir qız uşağını ərə verib ev-eşik yiyəsi etmək imkanım olsaydı, mən xoşbəxtlərin xoşbəxti olardım». Ağzımı doldurmuşdum. Daha xoşbəxtlik necə olmalıdı? Mən bu gün yol boyu arzularınıza necə qovuşduğunuzun şahidi oldum. Siz yol boyu həyəcan təbillərinin əks-sədasını eşitdiniz. Çox yox, heç olmasa birini də mən eşidəydim. Amma hardadı?! Eşidəcəyəmmi? Eşitməliyəm, hökmən, yoxsa bu nə yazıçılıqdı? Bəli, xoşbəxtsiniz. Şıxməmməd arxının yanındakı o iş icraçısı sizi böyük yazıçı kimi tanıdığını söylədi. İstanbulda gəmiçilik sahibi əsli azərbaycanlı kapitanın sizin «Arxaya baxma, qoca» romanınız haqda dedikləri, Barselonada gəmi göyərtəsində, sonra Bələdiyyə Teatr səhnəsində əsərinizin oynanılması da sizin həyəcan təbillərinizin əks-sədalarıdır. Bayaq gətirdiyi kitabınıza avtoqraf yazdığınız Nazlının söylədikləri də təbillərinizin əks-sədalarıdır. Bax, bu Şahnaz xanım da ərə vermək istədiyiniz qızlardan biridi. Servantesdən söz salırsınız. Oxucuların ürəyindədir əbədi heykəliniz.

İlyas müəllim xalq məhəbbətinin şərabıyla xumarlanır, mənim ağzım sulanırdı. Stəkanı yerə qoydum. «Yox, mən də zirvələr fəth etməli, alqışlar qanadında fəzalara uçmalıyam».

Qayadöşü aul-köşklərdəki qonaqlar aşağı tökülür, vələs kölgəsindəki İlyas müəllimin məclisinə tələsir, ustad yazıçının dilindən bir söz eşitmək, qismət olarsa onunla bir xatirə şəkli çəkdirmək üçün başına toplaşırdılar.

Raykomun köməkçisi Novruzov birinci katibə məxsus «kəcavə»nin aynabəndində göründü. Qayışını bərkidərək pilləkənləri iki bir-üç bir paçalayıb aşağı düşdü. Qabağına yüyürən xidmətçi qızı əlinin tərsiylə kənarlaşdırıb stolumuza yaxınlaşdı və İlyas müəllimlə qabaq-qənşər dayandı.

– Yoldaş İlyas müəllim, adınıza layiq, şərəfinizə uyğun bir stol açdırıb rayonumuzun birinci katibi, – deyərək əlini sol tərəfə atıb al qırmızı şarları, qumaş pərdələri sayrışan kəcavəni göstərdi. – Hə, birinci katibimiz Yoldaş Ömərov gözləyir ki, siz gəlib qazanların qapağını qaldırasınız. Dilinizdən bir-iki kəlmə ağıllı söz eşidək biz də. Di durun, gedək!

– Çox sağ olun. Yoldaş Ömərovla tanışlığım yoxdu. Amma görürəm ki, çox səmimi, qonaqpərvərdi!

– Bəli, sizin yaradıcılığınızdan danışır rayon ziyalılarının iclaslarında da. Əsərlərinizin əksəriyyətini saldırıb bizim teatrın repertuarına. Fikri var ki, sizi bu rayonun fəxri vətəndaşı seçdirsin. Çox hörmətli adamdı. Durun gedək, yaxından tanış olun.

İlyas müəllim gözucu Timuçinə baxdı. Timuçin çiyinlərini çəkdi. Yəni «nə bilim?» Amma bu baxışmalar Novruzovun gözündən yayınmadı.

– Hə, nə olar ki? O yoldaşı da götürək özümüzlə yuxarı.

– O yoldaş oğlumdu. Özü də sənətşünaslıq üzrə alimdi.

– Daha yaxşı. Çox gözəl. Durun gedək. Mənim də üzüm ağ olsun katibimin yanında. Bilirsinizmi, sonra burdan birbaşa gedəcəyik raykomun qonaq evinə. Yaxşıca dincələrsiniz bir-iki həftə. Qulluğunuzda özüm duracam. – O, birdən mənə tərəf çevrilib gözümə zilləndi. – Amma, hımm… m… m… – mızıldandı. – Amma soruşmaq ayıb olmasın, bəs yanınızda

oturan bu saç-saqqallı yoldaş kimdi? Bəlkə, şoferinizdi? Nolar şofer olanda? Adam xozeynə hörmətsizlik eləməz, – deyərək üzümə maddım-maddım baxdı. – Bir başqa yerdə otura bilməzsən?

Butulkanı nə vaxt götürdüyümü bilmədim. Dəli şeytan dedi ki, ya bu butulkanı raykom tulasının başına çırp, ya da öz başına çək. Başıma çəksəydim günüm qara gələcək, qələmimin projektor işıqlarından məhrum olacaqdım. «Odur, gözünü yaxşı açıb bax. İlyas müəllimi əldə gəzdirirlər. Ad-sanlıdır hər yerdə. Radiolar ondan danışır, televizorlar ancaq onu göstərir. Heyif deyilmi, əsərin tamaşaya qoyula, səni səhnə önündə gül-çiçəyə bürüsünlər. Xarici ölkələrdən valyutalar gəlsin. Yay aylarında üfunətli Nabranda yox, Şimali Qafqazın kurortlarında həm yeyib-içib dincələsən, həm də daşdan keçən əsərlər yazasan. Yox, xəyanət etdiyim ilham pərisinin könlünü almalıyam. «Qızıl Qaya» dağının başında tövbəyə, imana gəldi, düz yola qayıtdı Ərəb Mustafa. Elə oradaca əl-qol atıb, çapala-çapalaya öldü, məhv oldu bir kriminal, avtoritet Ərəb Mustafa adlı bir qanuni oğru.Təzə bir Ərəb Mustafa doğuldu. Polad iradəsiylə zəifliyinə, quldurluğuna, köhnəliyinə qalib gəldi Ərəb Mustafa».

Raykomun köməkçisi əyilib İlyas müəllimin qolundan tutdu:

– Hə, qalxın gedək. Bu şofer sarıdan da narahat olmayın. Tapşırram, elə ordakı aşların qazmaqlısından, çığırtmalardan, ləvəngilərdən gətirib qoyarlar bunun qabağına. Kababın yağlı tikələrindən özüm yığaram boşqabına.

– Bir az ehtiyatlı olun danışanda. Yüz dəfə ölçün, bir dəfə biçin, – dedi İlyas müəllim. – Üstünü unlu görüb, dəyirmançı çağırmayın tanımadığınız adamı. İlyas müəllimin mülayim sifəti sərtləşmişdi. Həmişə düşüncəli gözlərində elə bil şimşəklər oynadı. – O şofer dediyin kimdi, heç bilirsən? Gözəl şairdi.

Orijinallığı da ondadır ki, ifadələri, sözləri də biz-biz, iynə-iynədi. Sabun kimi sürüşkən deyil. İlk baxışda obrazları bax, onun saç-saqqalı kimi qarışıq, dolaşıq görünür. Amma dərinliklərinə, mənalarına varsaq bu dolaşıqlıq içində parlaqlıq, aydınlıq görərik. O, əsərlərini halva kimi bişirib vermir oxuculara. Onun bədii təşbehləri kəllə qənd kimidi. Dil-dodağı dalayıb şirin-şirin qıcıqlandırır. Mən bu gözəl şairi «Yoxuş başı»nda görməsəydim heç özüm də bura gəlməzdim. Orası da çox yaxşıdı ki, gəlməyimin xeyri oldu, məqsədimin nəticələrini görürəm. O mənim səngər yoldaşımdı. Ən balacasının, lap cırtdanının da canında Füzuli ucalığı var. Bu müqəddəs amal onları dərisi soyulmuş Nəsimiyə, almanların ölüm düşərgəsində ölməz şeirlər yazan Musa Cəlilə döndərir. İndi noolsun ki, tələsiyə düşüb üzünü qırxmayıb. Əyni-başı təzə deyil. Çox təmiz, həm də saf ürəyi olmasaydı məni saymaz, heç buraya da gəlməzdi. Sənətini sevməsə heç mənə də məhəl qoymazdı. Yaralı silah yoldaşımı səngərdə qoyub heç yerə gedə bilmərəm. Bir də görün nə qədər qonaq-qaram var?! Yoldaş Ömərova təşəkkürümü bildirin.

Məni İlyas müəllimə yaraşdırmadı raykom işçisi. Tez-tez boyun-boğazının tərini silən qırmızısifət prokuror da məni ikrahla süzür, donquldanırdı. Vaxtiylə mazutlu, solyarkalı gəmi matrosu – indi isə milyoner kapitan oturduğum səmtə də baxmırdı heç. Burnu hinduşka pipiyi kimi salxaq zavod direktoruyla baxışlarımız kəsişəndə üzünü turşutdu. Təhqir olunmuşdum. Sarsılır, üzülürdüm. Yox, bu «təzyiqlərə» son qoymalıyam. Ancaq necə? Tez yüyürüm özümü çatdırım o bulaq arxının sınan yerinə. Ayaqqablarımı yuyum, pencəyimi yaxşı-yaxşı çırpım. Bəs bu saç-saqqalımı da didə bilərəmmi? Bu, mümkün deyil. Ancaq Babanın kabinetindəki paltarlaradı ümid. İngilislərin «Mister Conson» kostyumu, almanların «Adidas» ayaqqabıları, italyanların cins köynəyi nizə

baxışların önündə qalxana dönər. Çox yaraşıqlı, cazibəli görünərəm. Yaxşı, tutaq ki, o paltarları geyindim, bəs bu ziyafətin haqq-hesabını necə çəkim?

Baba məni qapıda qarşıladı:

– Noolub, səni qovan var? Niyə belə təngnəfəssən? O boyda araqlı-konyaklı stolu qoyub niyə gəlmisən bura?

– Görmürsən nə kökdəyəm? Cındırımdan cin hürkür. Buna görə raykomun o yekəağız köməkçisi də ağzından gələni dedi mənə.

– Lap haqq elədi. Götür bu üzqırxanı, saçını düzəlt. Saqqalını taraş elə. Ona Tahir deyərlər. Ağlı, siyasəti, uzaqgörənliyi olmasa sədrliyə kim qoyar onu. O karopkanı aç, göndərdiyi paltarları geyin əyninə.

– Oho… o… o! Xeyir ola, Baba, tanıya bilmirəm səni. Qulaqlarıma da inana bilmirəm. Noolub! Nə, eşitmisən ki?

– Biz uşaqlıq dostuyuq. Ətini yedirtsəm də, sümüyünü atmaram. Billə-bilə, qəsdən üz göstərmədim sənə.

– Başa düşmürəm. Bir saat əvvəl çox sərt, kobud, indi belə?! Mənası nədi bu oyunların?

– Bilirsən nə var? Vurulan kartın yeri zibil yeşiyidi. Bunu bilmirsənsə indi bil. Ən yaxın dostun mənəm, elədimi? Ancaq belə miskin, alkoqolik mənə də lazım deyil! Düşkün, sınmış övlad ananı da bezdirər, qohum-qardaş ondan üz döndərər. Sənə üz göstərmədim ki, bu incəliyi başa düşüb uçurum başından geri qayıdasan. Rayonda hamı səndən üz döndərib. İndi görürəm ki, inama gəlmisən, haqq yola qayıdırsan. Dayan görək! Sən heç içki içənə də oxşamırsan. Qoy bir baxım – deyərək məni qucaqladı. Sinəsinin sümükləri döşümü daladı. Burnunu ağzıma söykədi. – Yoxdu heç nə! Nəfəsində vinni uqar yoxdu. Təlx deyil nəfəsin. Ura. Can ey! Sən heç nə içməmisən. Lentin yerindədi. Belədə sənə can qurban. Görürəm ki, vicdan səni tərpədir. Bu, yaxşıdı. Daha dayanma. Götür o paltarları gey əyninə.

– Yox! Qəti mümkün deyil. Başımı kəsərəm. Sənin qabağında boynubükük, borclu qalmaram. Tahirin hədiyyələrinə əl dəyməyəcəm, qalacaq burda. İlyas müəllimə verdiyim qonaqlığın haqqı artıqlamasıyla ödənilər. Olarıq əl-ələ, baş-başa. Raşşot!

– Boş-boş danışma. O haqq-hesab sonrakı söhbətdi. İndi raykomun katibi gələcək İlyas müəllimin yanına. Sən də orda abırlı, mərifətli görünməlisən. Araya salıb şeir oxu. Qubalı olduğuna namyok ver. İlyas müəllimdən xahiş eləmişəm, katibə eşitdirsin. Sənə raykomda bir iş verdirsin. Başbilənlərin cərgəsində ol ki, arxa-dayaq durasan mənə də. İşləyərsən, özünü düzəldərsən. Tez ol. Daha yubanma, – dedi Baba.

Baba öz şirinliyi, qayğıkeşliyi ilə mənə dünyaları bağışladı təzədən. Sərvət toplamaq, var-dövdət qazanmaq mümkündür. Amma dost itkisi dözülməzdir. Sapsağlam bir insanı torpağa basdırmaq kimi bir şeydi. Amma nə yaxşı oldu ki, özünü mənə, məni Babaya qaytardı Tanrım.

Yuxarıda – «kəcavə-köşkün» pilləkənləri başındakı xidmətçilər oturacağı xeyli enli və yumşaq kreslonu aşağı düşürdürdülər. Katib köməkçisinin işarəsiylə kreslo İlyas müəllimin yanında yerə qoyuldu. İlyas müəllim heyrətlə Nazlıya baxdı.

– Ay qızım, axı bu taxt-tac nəyimə gərək? Yerim rahat, ətrafımda da özüm kimi sadə, mehriban dostlarım.

– Yox! Yox! Siz narahat olmayın. Bu kreslo birinci katibimizindi. Sizinlə görüşmək istəyir. Yanınızda oturacaq, – dedi xidmətçilərdən hansısa.

– Əhə, əhə, – bir az qaba, bir az acı gəldi öskürəkləri. – Nə deyirəm. Amma yerdən çox yer var, harda istəsəniz oturdun.

«Kəcavə-köşk»ün aynabənd qapıları şaqqıltıyla açıldı. Pilləkənlərinin ayaq ucunda farağat duran Baba yuxarı boylanıb bərkdən öskürdü. Ağ döşlüklü qızlar özlərini yığışdırdılar. Nazlı İlyas müəllimə yaxınlaşaraq:

– Odu, kəcavədən çıxdı katibimiz, indi düşəcək aşağı – pıçıldadı.

Dolu bədənli, enlikürək katib qalın dodaq, fındıqburun idi. Əllərini məhəccərin sürahisinə qoyub qamətini şaxlandırdı. Belə vəziyyətdə o, hərbi parad qəbul edən sərkərdəni xatırlatdı.

Günəşin oynaq vaxtıydı. Yarpaqların arasından süzülən işıq zolaqları katibin sifətini eninə-uzununa kəsir, bu zaman o, «Vaqif» dramında Sidqi Ruhullanın yaratdığı Qacarı yada salırdı.

Katib pilləkənləri ehtiyatla, ağır-ağır düşdü. Sonra pencəyinin ətəklərini aşağı çəkdi. Əllərini arxasında çarpazlayıb inamlı, ağır addımlarla stolumuza yaxınlaşdı. İlyas müəllim ayağa durdu. Üzbəüzdəki yumşaq kreslonu göstərərək:

Keçin əyləşin taxt-tacınızda, – dedi.

– Hə, sizi burda görməyimə çox şadam, İlyas müəllim! İgidin adını eşitmişdik, qismət oldu üzünü də gördük. Daha doğrusu, dövlət başçısının rəsmi, təntənəli qəbullarında tez-tez olursunuz. Partiya və dövlət işçisi kimi biz də qulluğunuzda durmağa hazırıq. Bu, mənəvi-etik normadı. Bəs yanınıza adam göndərdim, ismarış elədim, – katib yana çevrildi. Yarı aralı yekə ağzında dişləri ağaran köməkçisinə baxdı. Köməkçi gödək əllərini yanlarına sıxıb farağat durdu. Qorxa-qorxa:

– Bəli, yoldaş Ömərov, mən İlyas müəllimdən çox xahiş elədim ki, yuxarı qalxsın.

– Bəli, dəvət etmisiniz. Diqqətin özü ən böyük hörmətdi. Amma mən də sizin istirahətinizi pozmaq istəmədim. – Bunu sakitcə dedi İlyas müəllim. – Həm də ətrafımdakı doğma, mehriban yoldaşlardan necə ayrılım? Onlar mənim başıma toplaşıblar. Biz bir-birimizi yaxşı başa düşürük.

– Hə, çox gözəl, – deyərək süfrəyə göz gəzdirdi yoldaş Ömərov. Sonra da – amma bir az təşkilati düzəliş olmalıdı burda, – deyib yan-yörəsinə boylandı.– Baba hanı bəs? – qeyzləndi katib.

Baba:

– Mən burdayam. Nə lazımdı, yoldaş Ömərov? – deyə vələsin qaranlıq kölgəsindən çıxıb boğazını irəli uzatdı. – Nə çatmır? Nə düz deyilsə düzəldək.

– Bu kreslonu başqa bir yerə, bir az açıqlığa qoyun. Burda sıxılaram. Qlobal düşüncə sahiblərinə qlobal meydan gərək. Partiya xadimi yüksək diapazonda danışmalı və iş aparmalıdı.

Kreslo aparanların ardınca gedə-gedə kötüklərin üstündə, kolların arasında oturub şirin-şirin yeyib-içənləri ikrahedici nəzərlərlə süzə-süzə arxaya çevrildi. Əlini başının üstünə qaldırıb tez də endirərək:

– Baba, İlyas müəllimin qabağındakı priborları da, süfrəni də tez-təcili dəyişdir! Abırlı, mərifətli, bol-bol yemək gətirsinlər! Sümüksüz balıqlardan varınızdımı? – deyə soruşdu.

– Hər cürəsindən. Özü də svejisi. Sizin tapşırığınızla hovuzumda bəsləyirəm.

– Ən axırda kababı, soyutması verilər. Fransız konyakı necə, varındı?

– Bəli, yoldaş Ömərov, özü də Fransa prezidentinin qəbul etdiyi «Lama-Lanşen» firmasının məhsulu. Allah canınızı sağ eləsin. Vkusunuza bələd olmuşuq, yoldaş Ömərov.

Yoldaş Ömərov süfrə arxasındakı qonaqlar laqeydcəsinə, gözucu süzüb mənə çatanda duruxub fikrə getdi. Sonra: – Hımm, – mızıldanıb İlyas müəllimə: – O yanınızda oturan yaxşı geyim-kecimli simpotiçni oğlan mənə çox şirin gəlir. Hımm… Harda görmüşəm, bəlkə, yadıma sala bildim?!. Hə, tapdım. Televizorda görmüşəm. Səhv eləmirəmsə o da yazıçıdı. Adı da, deyəsən, Nəsrəddindi.

– Bəli, gözəl şairdi. Adı da Nəsrəddin yox, Sədrəddindi. Qubalıdı, sizin yerlinizdi. Bakıda məsul vəzifədə çalışıb.

– Yox, İlyas müəllim, mən yerliçilik, qohumbazlıq prinsiplərindən çox uzağam. Yaxşı, məsuliyyətli başla, odlu-alovlu ürəklə partiya proqramlarını yerinə yetirən vətəndaşlara hörmətim var.

– Sədrəddin çox mərd, qeyrətli şairdi. Yaxşı təşkilatçılığı var. Sizin sağ əliniz ola bilər. Bir qulluğa qoyun. Lazım gəlsə, Yazıçılar İttifaqından rəsmi bir məktub da gətirər.

– Bəs o Yazıçıar İttifaqı niyə bir iş vermir ona?

– Axı siz də gərək yaxşı biləsiniz ki, partiya və hökumətimiz mədəniyyət, maarif işlərinin ucqarlarda yayılmasına çalışır. Mən istərdim ki, bu çağırışa siz birinci qoşulasınız.

– Hımm… – mızıldandı yoldaş Ömərov. Daş qayaya rast gəlmişdi. İlyas müəllim xahişini siyasi motivlərlə əsaslandırırdı. – Hımm… – Kresloya yayxanıb başını geri atdı katib. – Yaxşı, qoy bir şeir oxusun. Görək yolu, məsləki nədi bu şairin? – dedi.

Fürsət düşmüşdü. İndi bütün imkanlarımla katibin rəğbətini qazanmalıydım. Vəzifə tutmaq, nüfuz, hörmət, sayılmaq, seçilmək pilləsinin başındaydım. Təzə kitablara meydan açılacaq. Maşın almaq, ev tikdirmək, yay aylarında kurortlara getmək su içmək kimi asan olacaq. Yerimdən sıçrayıb qalxdım. Üzümü katibə tutdum. Yox, rəsmi dövlət qulluqçusuna yox! Atama, böyük qardaşıma, mənə canı yanan bir xilaskara baxan kimi baxır, oxuyacağım şeirimlə işıqlığa, aydınlığa necə can atdığımı göstərmək istəyirdim.

*Mənə işıq verin – elə bir işıq,*
*Dişim, dırnağımla ona sarmaşıb,*
*Keçim fələklərin yeddi qatından*
*Göylərə nur saçım insan adından.*

Katib əlindəki çəngəli boşqaba çırpıb ayağa durdu:

– Dayan! Elə burda saxla! Bu, şeir deyil. Bu, absurddu. Siz bu işıqlı dünyamızı görmürsünüz. Göyləri fəth edir sovet adamları. Sizin də uçmaq, qanadlanmaq vaxtınızdı. Amma ilham pəriniz zülmət pərdələri arasında çırpınır. Yox, bu

bizim yolumuz deyil! Siyasətimizə səs vermir. Öz yolunuzu düzgün müəyyənləşdirin, cavan oğlan, – deyib üzünü turşutdu. Sonra da İlyas müəllimə tərəf çevrilərək – əziz İlyas müəllim, siz əsl xalq yazıçısı, partiya və hökumətimizin görkəmli ideoloqusunuz. Mən birinci badəni sizin sağlığınıza qaldırmaq istəyirəm. Nə içəcəksiniz? – Əlini qaldırıb – Ə… ə…, Baba, hardasan? – deyə bir çırtma şappıldatdı.

Baba İlyas müəllimə yaxınlaşdı.

– Hansından içəcəksiniz? – soruşdu katib. – Konyak, viski, brenda, rom, bəlkə, daha təbii – tut, zoğal, çiyələk arağı?

Üzünü Babaya tutub sərt, amiranə səslə:

– Baba, nəyə məəttəlsən? Zirək ol bir az! Napoleon konyakıyla doldur o qədəhi. Hə, di qaldırın, İlyas müəllim. Sizə cansağlığı, ilhamınıza dağ çaylarının coşğunluğunu arzulayıram.

– Bağışlayın, – dedi İlyas müəllim. Çöhrəsində xəfif bir qızartı göründü. – Hörmətə, diqqətə görə çox sağ olun. Sağlıq sözünüz səmimi, ürəkdən gələndi. Amma içkiylə heç aram yoxdu. Buna görə məni üzrlü hesab edin. Hələ ömrümdə bir dəfə də olsun spirtli içki içməmişəm.

– Hımm… – mızıldanıb ətrafa göz gəzdirdi katib. Qırmızısifət prokuror kömür kimi qaralmışdı. Barmaqlarıyla stolu döyəcləyir, dınqıldadırdı. Təklənmiş, sözü yerə düşən katibə qahmar çıxmaq istədi:

– Hə, hə, İlyas müəllim, konyakın ürəyə xeyri çoxdu. Damarları genişləndirir. Qanı yaxşı işlədir. Gözləri itiləşdirir. İştahanı açır. Götürün içək. Bir az ətə-qana dolarsınız. Biz də açılışaq da. Bulaq başına həmişə gələ bilmirik. Katib məclisi ələ düşmür heç! Sonra yoldaş Ömərov yoldaşın sağlığına sözü də mən deyəcəm!

Bir sözü iki dəfə deməyi xoşlamayan İlyas müəllim prokuroru tərs-tərs süzüb yerində qurcalandı. Katib onunla qarşı-

qarşıya oturmuş yekəpər, bazburudlu qonağa baxdı. Bu qonaqdan onun təklifinə qüvvət verə biləcək bir söz eşitmək istədi.

Burnu hinduşka pipiyi kimi salxaq Sumqayıtdakı kauçuk zavodunun müdiri:

– Hə, hörmətli katib, həmən sağlığa, – deyərək dolu qədəhi başına çəkib duzlu xiyardan bir dişləm aldı. Sonra da alnında puçurlanmış tər damlalarını yaylığıyla qurudub İlyas müəllimin üzünə gülə-gülə – əlbəttə, birinci dəfə deyil ki, biz İlyas müəllimlə badə-badəyə vurmaqdan ləzzət almışıq, şərəf duymuşuq! – Sonra yan-yörəsinə boylanıb – tamada, ayaqüstü kimdi, bu qədəhi bir də doldursun, – deyə əlavə etdi.

Zavod müdirindən bir havadarlıq görməyən katibin qaşqabağı sallandı.

Onun tutulduğunu görən İlyas müəllim:

– Hə, neynək? Durum gəlim, badələrimizi toxunduraq birbirinə. Əhə, əhə… – astaca öskürdü İlyas müəllim. – Sizi bax, bu oğlum kimi – deyə başının işarəsiylə yanında oturan Timuçini göstərərək – hə, sizi bu balam kimi bağrıma basaram. Ancaq mən içməyəcəm. Bu yaşa çatmışam, amma içməmişəm.

İtaətlərə, «baş üstə»lərə vərdiş etmiş katibin sözünü yerə salmaq istəyirdilər. Yoldaş Ömərov çiyinlərini oynadıb, başını dikəltdi:

– Başa düşdük. Demək, ən ağır məclislərdə də içki içməmisiz. Amma bu dəfə içərsiniz. Mən elə bir sağlıq deyərəm ki, siz badəni son damlasına qədər içərsiniz, – dedi katib.

İlyas müəllim susurdu. Katibin yersiz, mənasız inadı onu hədəqədən çıxarmışdı.

Dodaqları büzülmüş katibin gözləri böyüyüb ağardı birdən. Alın qırışları üst-üstə təpildi. Axı onun təklifi bəyənilməmişdi.

– İlyas müəllim, görün nə deyirəm. Sovet İttifaqı Kommunist partiyasının şərəfinə, böyük Leninin şərəfinə qaldırıram bu badəni! Bu təklif rəddolunmazdı, götürün içək!

İlyas müəllim diksindi birdən. «Kommunist partiyası», «Böyük Lenin» ifadələri qəfil şillələr kimi toxundu ona. – Əhə… əhə… – bir-iki ağız öskürdü. Həmişə təbəssüm dolu sifəti sərtləşdi. O, həyatının ən təhlükəli, şantaj, məkr dolu anlarını yaşayırdı. Burda başqa seçim, yol-iz görünmürdü. Ancaq İlyas müəllim özünün Sovet İttifaqını, partiyanı saymayan, tanımayan, Leninə hörmət qoymayan bir xalq düşməni kimi damğalanmağına da yol verə bilməzdi. Vaxtıyla onu cəhənnəm qapısından geri götürən Əli Vəliyev düşdü yadına. Hardadı indi Əli? Sol tərəfdən dirsəyinə toxundu kimsə. Dönüb baxdı. Övladı idi. O, başının hərəkətiylə atasını sakitləşdirib ayağa qalxdı.

– Hörmətli Ömərov yoldaş, – deyə gülümsünəndə yanaqlarında, çənəsinin ortasında yaranan çökəklər yağlı çöhrəsinin şirinliyini bir az da artırdı. – Sizə böyük hörməti var atamın. O əsərlərində şanlı Kommunist partiyasının, ölməz Leninin ideyalarını tərənnüm edir. İlyas müəllim canıyla-başıyla sovet ideoloqudur. Amma dediyiniz sağlığa içmirsə, deməli, burda nəsə düz deyil.

– Siz kimsiniz, nəçisiniz axı? Məclisimdə sözümün üstünə söz qoyan olmayıb hələ! Sizə söz verməmişəm. İlyas müəllimin vəkilə ehtiyacı yoxdur.

– Mən İlyas müəllimin oğlu Timuçinəm. Harda danışmağı, harda susmağı atam öyrədib mənə. Bayaq atam dedi ki, içmirəm. Amma nə üçün içmədiyini soruşsaydınız belə gərginlik yaranmazdı.

– Nə soruşmalıyam ki? Allaha şükür, süfrəmiz zəngin, xörəklərimiz təzə!

– Ancaq burda çox vacib bir nemət çatmır.

Katib süfrəni gözucu nəzərdən keçirib qanlı-qanlı Babaya baxdı. Baba yazıq-yazıq:

– Nə çatmır? Yerin deşiyindən çıxardım bu saat!

– Çox sağ ol, Baba dayı, – dedi Timuçin. – İnanıram. – Sonra üzünü katibə tutdu. – Biz Kislovodskidən qayıdırıq. Bu gün səhər Xudat şəhərinə çatdıq. Bizi Xaçmazın birinci katibi, atamın dostu Balakişi əmi qarşıladı. Yaxşı süfrə açdırdı.Təsərrüfatın bütün növləri üzrə keçici bayraqlar aldığından danışır, arada şaqqanaq çəkir, bizi də güldürürdü. – Timuçin danışdıqca üzümə baxıb göz vurur, bütün bunların yalan, uydurma olduğunu nişan verirdi. İlyas müəllim olmayan şeyləri danışan Timuçinə qəzəblənsə də susur, söhbətin nəylə bitəcəyini gözləyirdi. Timuçin danışdıqca qızışırdı. – Hə, bəli, Balakişi əmi qədəhləri doldurdu. Mən butulkanın etiketinə baxdım. «Kremlovskaya zvezda» yazılmışdı qırmızı kağıza. Marağımı gizlədə bilmədim. Soruşdum – Balakişi əmi, belə etiketli araq heç vaxt, heç yerdə görməmişəm, bu nə araqdı belə?

– Götürün, içək. Bu suala sonra cavab verərəm – dedi.

Atam:

– Ay Balakişi, bilirsən ki, mən içki içən deyiləm. Amma bu butulka da qeyri-adidi axı.

– Mən bu badəni Xaçmaz zəhmətkeşlərinin şərəfinə qaldırıram, – dedi Balakişi əmi. – Moskvadan, keçici bayraqlar verilən Kremldən çoxlu qiymətli hədiyyələrlə bir yerdə bir qutu da bu araqdan göndəriblər bizə, – dedi Xaçmazın birinci katibi. Bəli, ömründə içki içməyən atam o Kreml arağından böyük həvəslə içdi. Əlbəttə, hörmətli Ömərov yoldaş, biz Qubaya tez-tez gəlirik. Gələn il təsərrüfatın bütün növləri üzrə planları doldurub, keçici bayraqların hamısını alarsınız, bax, onda sizin də rayonunuza Kremldən belə hədiyyələr gələr. O zaman atam İlyas Əfəndiyev dediyiniz sağlığa içər.

– Bəs bizim süfrəmizdə niyə yoxdu o «Kremlovski» araqdan? – yumruğunu stola çırpıb Babanın üzünə dirəndi katib.

– Qulaq asın, əsəbləşməyin, – dedi Timuçin. – Baba neyləsin? Satışda olmur belə araqlar. Mən maraqlandım, Balakişi əmidən bir də soruşdum ki, bu arağı hardan alıb. Balakişi əmi

söylədi ki, belə araqlar satışda olmur. Bizim rayona Kremldən göndəriblər. Sosializm yarışında bütün növlər üzrə keçici bayraqların hamısını alan o raykom katibinə belə araqlar göndərirlər.

– Yoldaş Novruzov, bəs biz təsərrüfatın bütün növləri üzrə keçici bayraqların hamısını almamışdıq?

– Bir-ikisinə gücümüz çatmadı. Yerinə yetirə bilmədik bəzi planları – deyə başını aşağı saldı Novruzov.

– Ayağa qalx! Gedək təcili aktivi yığaq. Məsələylə şəxsən özüm məşğul olmalıyam. İlyas müəllim kimi qonaqlardan məhrum etməyin məni, – deyərək kreslosunu kənara itələyib iri addımlarla doqqaza tərəf irəlilədi.

Hava qaralmışdı. Biz getməliydik. Babanı çağırtdırdım.

– Nə qulluğun, şair? – soruşdu.

– Biznən haqq-hesab çək! – dedim.

– Stolunuzun şotu çoxdan çatıb, özü də artıqlamasıyla.

– Necə çatıb? Kim verib?

– İlyas müəllimin oğlu – bu bir, – deyə barmağını bükdü, – sonra dənizçi kapitan, sonra qara qoçu gətirən Şahnaz xanım, sonra Xaçmazın prokuroru, sonra Sumqayıtdan gələn o hinduşkaburun zavod direktoru İlyas müəllimin stolunun haqqını veriblər.

– Bəs sən də hamısından almayaydın da – deyə gülümsədi İlyas müəllim.

– İndi bu pullar sizə çatır, – dedi Baba.

– Mənə heç nə lazım deyil. Qayda belədir ki, gərək səxavət göstərənə sən də bir hörmətnən cavab verəsən. Baba, burda hər şey gözəldir. Gör mehmanxanaya isti su çəkdirə bilərsənmi – dedi İlyas müəllim və maşına tərəf addımladı…

**2011–2013-cü illər**

YUSİF HƏSƏNBƏY
*(Yusif Qonaq oğlu Həsənbəyov)*
**TƏKAN**
*(Povest)*
Bakı, «Aspoliqraf», 2014.

Redaktoru ***Azər Abbas***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçısı ***Abdullah Rüstəmov***
Korrektoru ***Ülkər Rəhimova***

Çapa imzalanmışdır 27.03.2014 Kağız formatı 60x90 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 5,0. Sifariş 10. Tirajı 500.

«Aspoliqraf LTD» MMC nəşriyyat-poliqrafiya
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121$^{B}$

Tel: (+99 412) 567 81 28; Fax: (+99 412) 567 82 68
e-mail: aspoligraf_az@yahoo.com